# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN BAKALAVRİAT SƏVİYYƏSİNƏ 25 MAY 2025-Cİ İL TARİXİNDƏ 3-CÜ İXTİSAS QRUPU ÜZRƏ KEÇİRİLƏN QƏBUL İMTAHANINDA İSTİFADƏ OLUNAN TEST TAPŞIRIQLARININ İZAHI

## Azərbaycan dili

**A variantı 1 saylı test tapşırığı**
**B variantı 16 saylı test tapşırığı**
**C variantı 17 saylı test tapşırığı**
**D variantı 18 saylı test tapşırığı**

Eyler-Venn diaqramına əsasən ***yanlış*** fikirləri müəyyən edin.

**I** *O, həmişə deyirdi ki, doğma torpaqlarımızı unutmamalı, onun hər qarışını geri qaytarmalıyıq.*
**II** *Deyirdilər ki, qədimdə daş qoyub yurd salan adamın gözəl bir qızı varmış.* (İ. Hüseynov)




1. Mübtəda əvəzliklə, tamamlıqlardan biri ismi birləşmə ilə ifadə olunmuşdur.
2. Nümunədəki xəbərlər eyni zamanda, eyni şəkildə olan feillərlə ifadə olunub.
3. Baş cümlənin xəbəri "*idi*" köməkçi sözü (hissəciyi) ilə işlənmiş indiki zamanda olan sadə feildir.
4. Zərflik və təyinin ifadə vasitələri eyni nitq hissələridir.
5. Əsas tərəfi feili sifətlə ifadə olunan feili birləşmə cümlənin təyinidir.
6. Həm baş, həm budaq cümlə mübtədası buraxılmış müəyyən şəxsli cümlədir.

A) 1, 3, 5  B) 2, 4, 6  C) 1, 2, 6
D) 1, 3, 4  E) 2, 4, 5

***Mövzu:***Mövzulararası əlaqə
***Sinif:*** 7-9
***Alt-standart:*** 4.1.1.; 4.1.2.
***İzah:*** Eyler-Venn diaqramındakı 1-ci fikir doğrudur. Belə ki, *"O, həmişə deyirdi ki, doğma torpaqlarımızı unutmamalı, onun hər qarışını geri qaytarmalıyıq"* cümləsində mübtəda *(O)* əvəzliklə, tamamlıqlardan biri *(onun hər qarışını)* ismi birləşmə ilə ifadə olunub. 2-ci fikir yanlışdır, çünki həmin cümlədə işlənmiş xəbərlərdən yalnız biri zaman şəkilçilidir, digərləri isə vacib şəklindədir.

Həm I (*deyirdi)*, həm də II cümlənin (*deyirdilər)* baş cümləsinin xəbəri "*idi*" köməkçi sözü (hissəciyi) ilə işlənmiş indiki zamanda olan sadə feil olduğundan 3-cü fikir doğrudur. Cümlələrdəki zərflik və təyinin ifadə vasitələri eyni nitq hissələri olmadığından 4-cü fikir yanlışdır.

*Deyirdilər ki, qədimdə daş qoyub yurd salan adamın gözəl bir qızı varmış* cümləsində əsas tərəfi feili sifətlə ifadə olunan feili birləşmə (*daş qoyub yurd salan)* cümlənin təyinidir. 6-cı fikir yanlışdır, çünki baş cümlə qeyri-müəyyən şəxsli, budaq cümlə mübtəda işlənən müəyyən şəxsli cümlədir.
***Doğru cavab:*** 2, 4, 6

**A variantı 2 saylı test tapşırığı**
**B variantı 1 saylı test tapşırığı**
**C variantı 18 saylı test tapşırığı**
**D variantı 17 saylı test tapşırığı**

Hansı cərgədəki sözlərin hamısında "*isə*" köməkçi sözü (hissəciyi) "*idi*" köməkçi sözündən (hissəciyindən) sonra işlənmişdir?

A) bilərdisə, eşidirdisə, oturacaqdısa
B) oxuyarlarsa, bildisə, yazacaqdısa
C) yazacaqdısa, görmüşdüsə, aldısa
D) yazdısa, baxdısa, bildisə
E) alacaqdısa, görmüşsə, yazdısa

***Mövzu****:* Feil.
***Sinif:*** 7
***Alt-standart:*** 4.1.2.
***İzah:*** Bəndlərdə verilən *oxuyarlarsa, bildisə, aldısa, yazdısa, baxdısa* feillərində "*idi*" köməkçi sözü (hissəciyi) işlənməyib, *bilərdisə, eşidirdisə, oturacaqdısa* feillərinin hər birində "*idi*" köməkçi sözü (hissəciyi) və ondan sonra "*isə*" köməkçi sözü (hissəciyi) işlənmişdir.
***Doğru cavab:*** bilərdisə, eşidirdisə, oturacaqdısa

**A variantı 3 saylı test tapşırığı**
**B variantı 22 saylı test tapşırığı**
**C variantı 8 saylı test tapşırığı**
**D variantı 22 saylı test tapşırığı**

Verilmiş cümlələrə əsasən Eyler-Venn diaqramındakı doğru fikirləri müəyyən edin.

*I Ucsuz-bucaqsız tarlalar, biçənəklər, yaşıl yoncalıqlar bir-birini əvəz edirdi.*
*II Axşam günəşinin işıqlarını əks etdirən asfalt yolla bir neçə maşın gəlirdi.*




1. Düzəltmə isimlərdən biri feildən, digəri isimdən yaranmışdır.
2. Sadə və düzəltmə sifətlər işlənmişdir.
3. Hal şəkilçili isimlər cəm şəkilçisi də qəbul etmişdir.
4. Şəxsə və kəmiyyətə görə dəyişən feil indiki zamandadır.
5. Ayrı yazılan iki mürəkkəb söz işlənmişdir.
6. Sifət və zərf işlənməmişdir.

A) 1, 3, 4, 6  B) 1, 2, 3, 6  C) 2, 3, 5
D) 1, 4, 5, 6  E) 2, 4, 5

***Mövzu:***Mövzulararası əlaqə
***Sinif:*** 5-7
***Alt-standart:*** 4.1.2.
***İzah:*** *Ucsuz-bucaqsız tarlalar, biçənəklər, yaşıl yoncalıqlar bir-birini əvəz edirdi* cümləsində *biçənəklər* ismi feildən,

*yoncalıqlar* ismi isimdən yarandığından 1-ci fikir doğrudur. Bu cümlədə sadə sifət işlənsə də, düzəltmə sifət deyil, mürəkkəb sifət işləndiyindən 2-ci fikir yanlışdır.
3-cü fikir də yanlışdır, çünki I cümlədə hal və cəm şəkilçisi qəbul etmiş isim işlənməmişdir,II cümlədə isə yalnız bir isim hal və cəm çəkilçisi qəbul etmişdir. Hər iki cümlədə şəxsə və kəmiyyətə görə dəyişən feil indiki zamanda olduğundan 4-cü fikir Eyler-Venn diaqramının tələbini ödəyir. 5-ci və 6-cı fikirlər də doğrudur. Belə ki, I cümlədə yalnız bir söz, II cümlədə isə ayrı yazılan iki mürəkkəb söz işlənmişdir. Həmin cümlədə sifət və zərf işlənməmişdir, belə ki, "axşam" sözü kontekstə görə, "asfalt" sözü isə leksik və qrammatik mənasına görə isimdir.
***Doğru cavab:*** 1, 4, 5, 6

**A variantı 4 saylı test tapşırığı**
**B variantı 11 saylı test tapşırığı**
**C variantı 13 saylı test tapşırığı**
**D variantı 16 saylı test tapşırığı**

Feildən düzəlmiş isimlər hansılardır?

1. qarışıqlıq
2. bölgə
3. döyüşçü
4. sərgi
5. sayıqlıq
6. ağartı

A) 2, 4, 6 B) 3, 4, 5 C) 1, 4, 5
D) 2, 3, 6 E) 1, 2, 6

***Mövzu:***Söz yaradıcılığı.
***Sinif:*** 5
***Alt-standart:*** 4.1.2
***İzah:*** "qarışıqlıq" və "döyüşçü" sözlərinin kökləri feil olsa da, feildən yaranmayıb. "Sayıqlıq" sözündə feillə bağlılıq yoxdur. "ağartı" sözünün kökü sifət olsa da, feildən yaranıb. "Bölgə", "sərgi" sözləri də feildən yaranıb.
***Doğru cavab:*** 2, 4, 6

**A variantı 5 saylı test tapşırığı**
**B variantı 19 saylı test tapşırığı**
**C variantı 7 saylı test tapşırığı**
**D variantı 10 saylı test tapşırığı**

*Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, Şuşanın düşmən işğalından xilas edilməsi müharibənin taleyində həlledici rol oynamışdır* cümləsi ilə bağlı doğru fikri müəyyən edin.

A) "Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və prosesin kapitulyasiya ilə nəticələnməsi tarixi zəfərin nümayiş etdirilməsinə səbəb oldu" cümləsinin sintaktik təhlili ilə eynidir.
B) Xüsusi isimlərin hər ikisi ismi birləşmənin asılı tərəfidir.
C) Bir qrammatik əsasdan ibarətdir.
D) Xəbəri məlum növdə olan feillə ifadə olunmuş, köməkçi sözlə (hissəciklə) işlənmişdir.
E) Altından xətt çəkilmiş söz "*qismət*" sözü ilə əvəz edilsə, leksik norma pozulmaz.

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 6-10
***Alt-standart:*** 4.1.1; 4.1.2
***İzah:*** "*Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, Şuşanın düşmən işğalından xilas edilməsi müharibənin taleyində həlledici rol oynamışdır"* cümləsi ilə "*Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və prosesin kapitulyasiya ilə nəticələnməsi tarixi zəfərin nümayiş etdirilməsinə səbəb oldu*" cümləsinin sintaktik təhlili ilə eyni deyil. Cümlədəki xüsusi isimlərdən biri feili birləşmənin asılı tərəfi olduğundan "Xüsusi isimlərin hər ikisi ismi birləşmənin asılı tərəfidir" hökmü yanlışdır. Cümlənin xəbəri (*rol oynamışdır*) məlum növdə olan feillə ifadə olunsa da, köməkçi sözlə (hissəciklə) işlənməmişdir. Cümlədə altından xətt çəkilmiş *"tale"* sözü *"qismət"* sözü ilə əvəz edilsə, leksik norma pozular. Cümlədə həmcins mübtədalar və onlara aid xəbər olduğundan onun bir qrammatik əsası var, yəni sadə cümlədir.
***Doğru cavab:*** Bir qrammatik əsasdan ibarətdir.

**A variantı 6 saylı test tapşırığı**
**B variantı 13 saylı test tapşırığı**
**C variantı 3 saylı test tapşırığı**
**D variantı 13 saylı test tapşırığı**

Cərgələrdən birindəki sözlər omonimlik səciyyəsi daşıyaraq sifət və feil kimi işlənə bilər:

A) dolu, yağ, bağ B) at, yaz, yad
C) min, saç, daş D) az, çal, yol E) dik, sarı, sağ

***Mövzu:***Leksikologiya.
***Sinif:*** 5
***Alt-standart:*** 4.1.2
***İzah:*** *At, yaz, yağ, min, saç, daş, az, yol* sözləri feil kimi işlənsə də, sifət kimi işlənə bilməz. *Dik, sarı, sağ* sözlərinin hər biri omonimlik səciyyəsi daşıyaraq həm sifət, həm də feil kimi işlənə bilər.
***Doğru cavab:*** dik, sarı, sağ

## A variantı 7 saylı test tapşırığı
## B variantı 2 saylı test tapşırığı
## C variantı 15 saylı test tapşırığı
## D variantı 4 saylı test tapşırığı

Söz birləşmələri əsasında uyğunluğu müəyyən edin.

- *Gərginliyin nəticəsi*
- *Oxuyanlardan biri*
- *Böyüklərin duası*

**1. Hamısına aiddir.**
**2. Yalnız ikisinə aiddir.**

a. Asılı tərəfi yiyəlik halda olan isimlə ifadə olunub.
b. Tərəfləri quruluşca sadədir.
c. I tərəfi ismə aid qrammatik şəkilçilər qəbul etsə də, isim deyil.
d. Mübtədanın ifadə vasitəsi kimi işlənə bilir.
e. Kökü feil olan düzəltmə söz işlənmişdir.

A) 1 – d; 2 – a, c B) 1 – a, d; 2 – b, c
C) 1 – b; 2 – c, d D) 1 – d; 2 – c, e
E) 1 – b, c; 2 – d, e

***Mövzu***: Mövzulararası əlaqə
***Sinif:*** 5-8
***Alt-standart:*** 4.1.1; 4.1.2
***İzah:*** "Asılı tərəfi yiyəlik halda olan isimlə ifadə olunub" *(gərginliyin nəticəsi) və* "Tərəfləri quruluşca sadədir" (*oxuyanlardan biri* ) fikirləri yalnız bir söz birləşməsinə aiddir. Verilən söz birləşmələrindən hər biri mübtəda kimi işlənə bilər. "I tərəfi ismə aid qrammatik şəkilçilər qəbul etsə də, isim deyil" fikri 2 söz birləşməsinə (*oxuyanlardan biri, böyüklərin duası)* aiddir.
***Doğru cavab:*** 1 – d; 2 – c, e

**A variantı 8 saylı test tapşırığı**
**B variantı 9 saylı test tapşırığı**
**C variantı 12 saylı test tapşırığı**
**D variantı 9 saylı test tapşırığı**

Eyler-Venn diaqramına əsasən doğru cavabı müəyyən edin.

**I** *Can evimə sığışmayan arzular*
*Bir dünyada neçə dünya arzular.* (S.Vurğun)
**II** *Aslan bəy anasının yun daradığını görür.*




A) 1, 3, 5  B) 2, 3  C) 1, 2, 4  D) 2, 5  E) 3, 4

***Mövzu:*** Sintaksis. Cümlə üzvləri.
***Sinif:*** 8
***Alt-standart:*** 4.1.2
***İzah:*** "Feili birləşmə ilə ifadə olunmuş cümlə üzvü var" fikri Eyler-Venn diaqramının tələbini ödəmir. Belə ki, hər iki nümunədə feili birləşmə işlənib (I cümlədə *Can evimə sığışmayan,* II cümlədə *anasının yun daradığını).* 2-ci fikir doğrudur, *belə ki,* I cümlədə mübtəda (*arzular*) ümumi isimlə ifadə olunub. Hər iki cümlə feili xəbərli olduğundan 3-cü fikir doğrudur. II cümləyə aid verilən 4-cü fikir – "Hər bir cümlə üzvü söz birləşməsi ilə ifadə olunub" fikri yanlışdır, çünki xəbər (*görür*) nitq hissəsi ilə ifadə olunub. II cümlədə II dərəcəli cümlə üzvlərindən yalnız tamamlıq işləndiyindən 5-ci fikir yanlışdır.
***Doğru cavab:*** 2, 3

**A variantı 9 saylı test tapşırığı**
**B variantı 18 saylı test tapşırığı**
**C variantı 20 saylı test tapşırığı**
**D variantı 20 saylı test tapşırığı**

Cərgələrin birində bütün sözlərin yazılışı ***səhvdir:***

A) qafiyyə, qətiyət, nümunəvi
B) püxdələşmək, refarat, nüxsə
C) inatkar, ixtira, tədbiq
D) pedaqoq, itgi, səhf
E) lampa, zənbil, məcara

***Mövzu:*** Orfoqrafiya.
***Sinif:*** 5-11
***Alt-standart:*** 4.1.4.
***İzah:*** Cərgələrində verilən bir çox sözlər *nümunəvi, ixtira, pedaqoq, lampa, zənbil* yazılışına görə doğrudur. *püxdələşmək, refarat, nüxsə* sözlərinin hər birinin yazılışı yanlışdır. Bu sözlərin düzgün yazılış forması belə olmalıdır: *püxtələşmək, referat, nüsxə*
***Doğru cavab:*** püxdələşmək, refarat, nüxsə

**A variantı 10 saylı test tapşırığı**
**B variantı 17 saylı test tapşırığı**
**C variantı 11 saylı test tapşırığı**
**D variantı 21 saylı test tapşırığı**

Cümlələrin şəxsə görə növü hansı bənddə düzgün verilib?

1. Bütün məclislərdə onun qəhrəmanlığından bəhs edilirdi.
2. Bütün məclislərdə onun qəhrəmanlığından bəhs edirdilər.

A) Hər ikisi müəyyən şəxsli cümlədir.
B) Birincisi ümumi şəxsli, ikincisi şəxssiz cümlədir.
C) Birincisi şəxssiz, ikincisi qeyri-müəyyən şəxsli cümlədir.
D) Birincisi müəyyən şəxsli, ikincisi ümumi şəxsli cümlədir.
E) Hər ikisi şəxssiz cümlədir.

***Mövzu:*** Sadə cümlənin şəxsə görə növləri.
***Sinif:*** 8
***Alt-standart:*** 4.1.1
***İzah:*** *Bütün məclislərdə onun qəhrəmanlığından bəhs edilirdi* cümləsində mübtəda işlənmədiyindən,habelə təsəvvür edilmədiyindən və xəbər 3-cü şəxsin təkində olduğundan şəxssiz cümlə, *Bütün məclislərdə onun qəhrəmanlığından bəhs edirdilər* cümləsində mübtəda olmadığından, xəbər 3-cü şəxsin cəmində işləndiyindən və iş, hərəkət qeyri-müəyyən şəxslərə aid olduğundan qeyri-müəyyən şəxsli cümlədir.
***Doğru cavab:*** Birincisi şəxssiz, ikincisi qeyri-müəyyən şəxsli cümlədir.

**A variantı 11 saylı test tapşırığı**
**B variantı 15 saylı test tapşırığı**
**C variantı 9 saylı test tapşırığı**
**D variantı 1 saylı test tapşırığı**

Hansı sıradakı sözlərin yeri dəyişdirilsə, cədvəldəki ***uyğunsuzluq*** aradan qalxar?

| | o | a |
|---|---|---|
| 1. | l*qarifm | s*movar |
| 2. | eksk*vator | par*voz |
| 3. | tr*yektoriya | st*matologiya |
| 4. | k*nyon | k*rrektor |
| 5. | k*nsepsiya | q*rnizon |

A) 1, 4  B) 4, 5  C) 1, 3, 5  D) 2, 3, 4  E) 1, 2

***Mövzu:*** Orfoqrafiya
***Sinif:*** 5-11
***Alt-standart:*** 4.1.4
***İzah:*** Cədvəlin 1-ci və 5-ci sətrindəki sözlər cədvəlinə tələbinə görə düzgün sıralanıb: *loqarifm, samovar, konsepsiya, qarnizon.* 2-ci, 3-cü, 4-cü sətirdəki sözlərin isə yeri dəyişidirilsə, cədvəldəki ***uyğunsuzluq*** aradan qalxar. Çünki bu sıralardakı sözlərin yazılışı belə olmalıdır: *ekskavator, parovoz; trayektoriya, stomatologiya; kanyon, korrektor*
***Doğru cavab:*** 2, 3, 4

**A variantı 12 saylı test tapşırığı**
**B variantı 7 saylı test tapşırığı**
**C variantı 22 saylı test tapşırığı**
**D variantı 3 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.

1. Söz kökündəki açıq sait tələffüzdə qapalı saitə çevrilir.
2. Sözdəki qoşa saitlərdən biri tələffüzdə düşür.
3. Sözün tələffüzündə səsartımı baş verir.

a. səsləyim
b. oxşayır
c. mətbəə
d. neqativ
e. təbiət

A) 1 – b; 2 – c; 3 – e  B) 1 – e; 2 – d; 3 – a, b
C) 1 – e; 2 – c; 3 – d  D) 1 – d; 2 – e; 3 – a
E) 1 – a, b; 2 – c, d; 3 – e

***Mövzu:*** Orfoepiya
***Sinif:*** 5
***Alt-standart:*** 4.1.2
***İzah:***
*Oxşayır* sözündə söz kökündəki açıq sait tələffüzdə qapalı saitə çevrilir: *[oxşuyur]* *Səsləyim* sözünün tələffüzündə söz kökündə deyil, şəkilçidə açıq sait qapalıya çevrilir: *[səsdiyim]* *Mətbəə* sözündəki qoşa saitlərdən biri tələffüzdə düşür: *[mətbə: ]* *Təbiət* sözünün tələffüzündə səsartımı baş verir: *[təbiyət]* *Neqativ* sözünün tələffüzündə isə heç bir dəyişiklik baş vermir.
***Doğru cavab:*** 1 – b; 2 – c; 3 – e

**A variantı 13 saylı test tapşırığı**
**B variantı 4 saylı test tapşırığı**
**C variantı 4 saylı test tapşırığı**
**D variantı 19 saylı test tapşırığı**

Hansı cümlədə işlənən ədat başqa nitq hissəsi ilə omonimlik təşkil edə bilər?
1. Mühəndis Həsənov düz iki saat idi ki, izahat verirdi.
2. Biz səninlə tamamilə razıyıq, hörmətli həmkar.
3. Qoy ürəyimdəkiləri söyləyim, onda rahatlıq taparam.
4. Di tərpənin, maşın hazırdır, yolçu yolda gərəkdir.
5. Dostum, yəni bunu da bilmirsən?
A) 2, 4 B) 2, 3 C) 1, 3, 5
D) 1, 3, 4 E) 1, 4, 5

***Mövzu:*** Köməkçi nitq hissələri. Ədat.
***Sinif:*** 7
***Alt-standart:*** 4.1.2.
***İzah:***
*Mühəndis Həsənov düz iki saat idi ki, izahat verirdi* cümləsində "düz" ədatı sifətlə, zərflə, feillə, isimlə, *Qoy ürəyimdəkiləri söyləyim, onda rahatlıq taparam* cümləsində "qoy" ədatı feillə, *Dostum, yəni bunu da bilmirsən?* cümləsində "yəni" ədatı bağlayıcı ilə omonimlik təşkil edir. *Biz səninlə tamamilə razıyıq, hörmətli həmkar* cümləsində ədat işlənməyib. *Di tərpənin, maşın hazırdır, yolçu yolda gərəkdir* cümləsindəki "di" ədatı omonimlik təşkil etmir.
***Doğru cavab:*** 1, 3, 5

**A variantı 14 saylı test tapşırığı**
**B variantı 14 saylı test tapşırığı**
**C variantı 5 saylı test tapşırığı**
**D variantı 11 saylı test tapşırığı**

Nümunədə buraxılmış durğu işarələrini müəyyən edin.
*Kişi bu dəfə həm təəccüb, həm də heyrətlə Əhmədə müraciət etdi*
*Ay oğul nə yaman arxayın danışırsan axı sənin nəyin var ki*
A) qoşa nöqtə, bir tire, iki vergül, bir sual işarəsi
B) nöqtə, bir tire, dörd vergül, nida, bir sual işarəsi
C) qoşa nöqtə, bir tire, bir vergül, bir sual işarəsi
D) nöqtə, iki tire, üç vergül, bir sual işarəsi
E) qoşa nöqtə, iki tire, iki vergül, bir sual işarəsi

***Mövzu:*** Vasitəsiz nitq. Durğu işarələri.
***Sinif:*** 9
***Alt-standart:*** 4.1.3
***İzah:*** Təqdim edilmiş cümlədə qoşa nöqtə, bir tire, iki vergül, bir sual işarəsi buraxılmışdır. Cümlədəki durğu işarələri aşağıdakı kimi qoyulmalıdır.
*Kişi bu dəfə həm təəccüb, həm də heyrətlə Əhmədə müraciət etdi:*
*– Ay oğul**,** nə yaman arxayın danışırsan**,** axı sənin nəyin var ki**?***
***Doğru cavab:*** qoşa nöqtə, bir tire, iki vergül, bir sual işarəsi

**A variantı 15 saylı test tapşırığı**
**B variantı 12 saylı test tapşırığı**
**C variantı 10 saylı test tapşırığı**
**D variantı 6 saylı test tapşırığı**

Hansı cümlələrdə qrammatik norma ***pozulmamışdır***?
1. Görünür uzaqda kasıb daxmalar.
2. Uşağın sifəti qızarmışdı.
3. Uşaqların çoxu bu fikrə etiraz edirdilər.
4. Uşağı evə gələndə gördülər.
5. Səninlə necə danışmalıyam?
6. Bir neçə illərdir ki, onu görmürəm.
A) 3, 5, 6 B) 1, 2, 4 C) 2, 5, 6
D) 1, 3, 4 E) 2, 4, 5

***Mövzu:*** Ədəbi dil normaları.
***Sinif:*** 10
***Alt-standart:*** 4.1.2
***İzah:*** *Görünür uzaqda kasıb daxmalar* cümləsində xəbər digər cümlə üzvlərindən əvvəldə işləndiyindən, *Uşaqların çoxu bu fikrə etiraz edirdilər* cümləsində mübtəda xəbərlə kəmiyyətə görə uzlaşmadığından, *Bir neçə illərdir ki, onu görmürəm* cümləsində saydan sonra işlənən isim cəmdə olduğundan qrammatik norma pozulmuşdur. *Uşağın sifəti qızarmışdı*; *Uşağı evə gələndə gördülər; Səninlə necə danışmalıyam?* cümlələrində qrammatik normanın tələbləri pozulmayıb.
***Doğru cavab:*** 2, 4, 5

**A variantı 16 saylı test tapşırığı**
**B variantı 20 saylı test tapşırığı**
**C variantı 6 saylı test tapşırığı**
**D variantı 12 saylı test tapşırığı**

Zərflərin məna növlərinə görə işlənmə ardıcıllığını müəyyənləşdirin.
● *O, ətrafına baxa-baxa ora-bura vurnuxurdu.*
● *Bərk tufan olduğundan sahil güclə seçilirdi.*
● *Fermer təsərrüfatında məhsuldarlıq birə-beş artmışdı.*
● *Gec-tez əzəli torpaqlarımız düşmən tapdağından azad olacaq.*
1. tərzi-hərəkət
2. zaman
3. yer
4. kəmiyyət
A) 3, 1, 2, 4 B) 2, 3, 1, 4 C) 1, 3, 4, 2
D) 3, 1, 4, 2 E) 1, 4, 3, 2

***Mövzu:*** Zərf.
***Sinif:*** 6
***Alt-standart:*** 4.1.2
***İzah:*** Verilmiş cümlələrdə *ora-bura* sözü yer, *güclə* sözü tərzi-hərəkət, *birə-beş* sözü kəmiyyət, *gec-tez* zaman zərfidir.
***Doğru cavab:*** 3, 1, 4, 2

**A variantı 17 saylı test tapşırığı**
**B variantı 3 saylı test tapşırığı**
**C variantı 16 saylı test tapşırığı**
**D variantı 8 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.
1. Feili sifət tamamlıq vəzifəsində işlənmişdir.
2. Hərəkətin tərzini bildirən feili bağlama işlənmişdir.
3. Məsdər zərflik vəzifəsində işlənmişdir.

a. Gülümsəyib üzümə baxdı.
b. Deyiləni kiçik eşidər.
c. Bahar yaxınlaşdıqca təbiət canlanır.
d. Əli Bakıya işləməyə gəlmişdi.
e. Məclisdəkilər susmağı daha üstün tutdular.

A) 1 – b; 2 – a; 3 – d B) 1 – b, d; 2 – c; 3 – a
C) 1 – d, e; 2 – b; 3 – c D) 1 – e; 2 – c; 3 – a, d
E) 1 – d; 2 – a, c; 3 – b

***Mövzu:*** Mövzulararası əlaqə.
***Sinif:*** 7-8
***Alt-standart:*** 4.1.2
***İzah:*** *Gülümsəyib üzümə baxdı* cümləsində hərəkətin tərzini bildirən feili bağlama, *Deyiləni kiçik eşidər* cümləsində tamamlıq vəzifəsində işlənən feili sifət, *Əli Bakıya işləməyə gəlmişdi* cümləsində zərflik vəzifəsində işlənən məsdər işlənmişdir. Digər cümlələr isə ( *Bahar yaxınlaşdıqca təbiət canlanır; Məclisdəkilər susmağı daha üstün tutdular*) testin şərtinin heç bir şərtinə uyğun gəlmir.
***Doğru cavab:*** 1 – b; 2 – a; 3 – d

**A variantı 18 saylı test tapşırığı**
**B variantı 6 saylı test tapşırığı**
**C variantı 14 saylı test tapşırığı**
**D variantı 2 saylı test tapşırığı**

Budaq cümləsi baş cümləyə bağlayıcı sözlə bağlanan tabeli mürəkkəb cümləni müəyyən edin.
A) Allahyar gördü ki, məsələ ciddidir.
B) Kiminlə işləmək istəyirsən, onunla da danış.
C) Zərnigar xanım da, Salatın da başa düşdü ki, gələnlərin qabağını saxlamaq mümkün deyil.
D) Arvadın canına vahimə düşdü, çünki qulağına Salatının adı gəldi.
E) Deyirlər, hər ömür bir çaya bənzər.

***Mövzu:***Tabeli mürəkkəb cümlə.
***Sinif:*** 9
***Alt-standart:*** 4.1.2
***İzah:*** *Kiminlə işləmək istəyirsən, onunla da danış* cümləsində budaq cümlə baş cümləyə bağlayıcı sözlə (*kiminlə*) bağlanmışdır. *Deyirlər, hər ömür bir çaya bənzər* cümləsində budaq cümlə baş cümləyə yalnız intonasiya ilə, digər cümlələrdə isə bağlayıcı ilə bağlanmışdır.
***Doğru cavab:*** Kiminlə işləmək istəyirsən, onunla da danış.

**A variantı 19 saylı test tapşırığı**
**B variantı 8 saylı test tapşırığı**
**C variantı 2 saylı test tapşırığı**
**D variantı 15 saylı test tapşırığı**

*Yazda dağların əriyən qarı üzüaşağı axaraq Kürə qovuşur, onun dumduru sularını bulandırır* nümunəsindəki cümlə üzvləri haqqında doğru fikri müəyyən edin.
A) Cümlədə sifətlə ifadə olunmuş təyin işlənmişdir.
B) “Yazda” isimlə ifadə edilmiş zaman zərfliyidir.
C) Nümunədə üç cümlə üzvü söz birləşməsi ilə ifadə olunmuşdur.
D) Nümunədə yalnız ismi birləşmələr işlənmişdir.
E) Cümlədə ismi və feili xəbərlər vardır.

***Mövzu:***Mövzulararası əlaqə.
***Sinif:*** 6-8
***Alt-standart:*** 4.1.2
***İzah:*** *Yazda dağların əriyən qarı üzüaşağı axaraq Kürə qovuşur, onun dumduru sularını bulandırır* cümləsində sifətlə ifadə olunmuş təyin işlənməmişdir. “Yazda” isim deyil, düzəltmə zərfdir. Cümlədə ismi birləşmələrlə yanaşı, feili birləşmə də (*üzüaşağı axaraq*) işlənmişdir. Cümlədə olan hər iki xəbər feili xəbərdir.
Nümunədə üç cümlə üzvü söz birləşməsi ilə ifadə olunmuşdur: *dağların əriyən qarı* – mübtəda, *üzüaşağı axaraq* – zərflik, *onun dumduru sularını* – tamamlıq
***Doğru cavab:*** Nümunədə üç cümlə üzvü söz birləşməsi ilə ifadə olunmuşdur.

**A variantı 20 saylı test tapşırığı**
**B variantı 5 saylı test tapşırığı**
**C variantı 21 saylı test tapşırığı**
**D variantı 14 saylı test tapşırığı**

Nümunədə tünd-qara hərflərlə verilmiş sözlərə aid fikirlərin ardıcıllığını müəyyənləşdirin.

*Sən vurğunu olma şirin* ***dillərin,***
*Sözündə* ***ötkəm ol****, ağıldan dərin.*
*Sən* ***gözəl*** *qızısan* ***bizim*** *ellərin,*
*Almamsan,* ***heyvamsan****, narımsan, qızım.*
(Bəybala Abbaslı)

1. Sadə sifətdir.
2. Hal şəkilçili əvəzlikdir.
3. Yiyəlik halda olan ümumi isimdir.
4. İsim mənsubiyyət və xəbərlik şəkilçilidir.
5. Əmr şəklində mürəkkəb feildir.

A) 2, 4, 5, 1, 3 B) 3, 5, 1, 2, 4 C) 1, 3, 4, 2, 5
D) 4, 2, 3, 5, 1 E) 3, 5, 1, 4, 2

***Mövzu:*** Nitq hissələri.
***Sinif:*** 6
***Alt-standart:*** 4.1.2
***İzah:*** Nümunədə tünd-qara hərflərlə verilmiş ***dillərin*** sözü yiyəlik halda olan ümumi isim, ***ötkəm ol*** əmr şəklində mürəkkəb feil, ***gözəl*** sözü sadə sifət, ***bizim*** hal şəkilçili əvəzlik, ***heyvamsan*** mənsubiyyət və xəbərlik şəkilçili isimdir.
***Doğru cavab:*** 3, 5, 1, 2, 4

**A variantı 21 saylı test tapşırığı**
**B variantı 21 saylı test tapşırığı**
**C variantı 1 saylı test tapşırığı**
**D variantı 7 saylı test tapşırığı**

*Dünyada səadəti, birlik və qardaşlığı bütün xalqlar, millətlər bərqərar etməlidir* nümunəsində həmcins cümlə üzvlərini müəyyən edin.
1. mübtəda
2. xəbər
3. tamamlıq
4. təyin
5. zərflik

A) 2, 5 B) 1, 4 C) 3, 5 D) 2, 4 E) 1, 3

***Mövzu:*** Həmcins üzvlər.
***Sinif:*** 8
***Alt-standart:*** 4.1.2
***İzah:*** *Dünyada səadəti, birlik və qardaşlığı bütün xalqlar, millətlər bərqərar etməlidir* nümunəsində *səadəti, birlik və qardaşlığı* həmcins tamamlıq, *xalqlar, millətlər* həmcins mübtədalardır.
***Doğru cavab:*** 1, 3

**A variantı 22 saylı test tapşırığı**
**B variantı 10 saylı test tapşırığı**
**C variantı 19 saylı test tapşırığı**
**D variantı 5 saylı test tapşırığı**

Əlavənin hansı cümlə üzvünə aid olması ilə bağlı ardıcıllığı müəyyən edin. (Durğu işarələri buraxılmışdır.)

- *Səmanın dərinliklərində ağ buludların arasında iki qartal uçurdu.*
- *O günlərin xatirəsi hələ də bizimlə qanlı-qadalı günlərin canlı şahidləri ilədir.*
- "*Leyli və Məcnun*" *operası Ü. Hacıbəyovun ölməz əsəri bir çox ölkələrdə tamaşaya qoyulmuşdur*.
- *Aşıq Səfər sazı dostunun yadigarını son dəfə əlinə götürdü.*

1. mübtədaya
2. tamamlığa
3. zərfliyə
4. xəbərə

A) 2, 4, 1, 3 B) 3, 4, 2, 1 C) 1, 3, 4, 2
D) 3, 4, 1, 2 E) 1, 2, 4, 3

***Mövzu:*** Cümlə üzvlərinin əlavəsi
***Sinif:*** 8
***Alt-standart:*** 4.1.2
***İzah:*** *Səmanın dərinliklərində ağ buludların arasında iki qartal uçurdu* cümləsində əlavə *(ağ buludların arasında)* zərfliyə; *O günlərin xatirəsi hələ də bizimlə qanlı-qadalı günlərin canlı şahidləri ilədir* cümləsində əlavə *(qanlı-qadalı günlərin canlı şahidləri ilədir)* xəbərə (sözdə xəbərlik şəkilçisi ixtisar olunmuşdur – *bizimlədir);* "*Leyli və Məcnun*" *operası Ü. Hacıbəyovun ölməz əsəri bir çox ölkələrdə tamaşaya qoyulmuşdur* cümləsində əlavə (*Ü. Hacıbəyovun ölməz əsəri)* mübtədaya*; Aşıq Səfər sazı dostunun yadigarını son dəfə əlinə götürdü* cümləsində əlavə *(dostunun yadigarını)* tamamlığa aiddir.
***Doğru cavab:*** 3, 4, 1, 2

**A variantı 23 saylı test tapşırığı**
**B variantı 24 saylı test tapşırığı**
**C variantı 25 saylı test tapşırığı**
**D variantı 25 saylı test tapşırığı**

Cümlələrə əsasən doğru fikirləri müəyyən edin.

- *Günəş qalxıb dağları, meşələri brilyant kimi şəffaf işığa qərq etdi.*
- *Sanki günəşdən qaçan süd kimi ağ duman layları sürətlə qərbə tərəf sürünürdü.*

1. Hər iki cümlədə həm şəxsə və kəmiyyətə görə dəyişə bilən, həm də dəyişə bilməyən feil işlənmişdir.
2. İkinci cümlədə qayıdış növdə olan feil keçmiş zamandadır.
3. Hər iki cümlənin qrammatik əsasını təşkil edən üzvlər söz birləşməsi ilə ifadə olunub.
4. Birinci cümlədə işlənən bütün sözlərin quruluşca növü eynidir.
5. İkinci cümlədə həm zərf, həm də zərflik işlənmişdir.
6. İkinci cümlədəki düzəltmə sözlərin hər biri fərqli nitq hissəsidir.

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 5-8
***Alt-standart:*** 4.1.2
***İzah:*** Hər iki cümlədə həm şəxsə və kəmiyyətə görə dəyişə bilən, həm də dəyişə bilməyən feil işlənmişdir (I – *qalxıb, qərq etdi*; II – *qaçan, sürünürdü*). İkinci cümlədə qayıdış növdə olan feil işlənsə də, indiki zamandadır (*sürünürdü*). *Hər iki cümlənin qrammatik əsasını təşkil edən üzvlər söz birləşməsi ilə ifadə olunub* fikri yanlışdır, çünki yalnız 2-ci cümlədə mübtəda söz birləşməsi ilə (*duman layları)* ifadə olunub. Birinci cümlədə işlənən bütün sözlərin quruluşca növü eyni deyil, çünki *qərq etdi* feili mürəkkəbdir. İkinci cümlədə həm zərf *(sürətlə),* həm də zərflik *(sürətlə, qərbə tərəf)* işlənmişdir İkinci cümlədəki düzəltmə sözlərin hər biri fərqli nitq hissəsidir, *sürətlə* zərf, *sürünürdü* feildir.
***Doğru cavab:*** 1, 5, 6

**A variantı 24 saylı test tapşırığı**
**B variantı 26 saylı test tapşırığı**
**C variantı 23 saylı test tapşırığı**
**D variantı 26 saylı test tapşırığı**

Hansı cümlələrin tərkibində qrammatik mənası müxtəlif cür düşünülə bilən söz var? (Durğu işarələri buraxılıb.)

1. Nə maraqlıdır
2. Nə yaxşı insandır
3. Ancaq sən bu suala cavab vermədin
4. Elə oturmuşdu ki narahat olmağa başladıq
5. Bizdən sonra danışar
6. Bu hadisə yaydan əvvəl baş vermişdi

***Mövzu:***Nitq hissələri
***Sinif:*** 6-7
***Alt-standart:*** 4.1.2
***İzah:***
*Nə maraqlıdır* cümləsində "nə" sözünün həm əvəzlik, həm də ədat kimi; *Ancaq sən bu suala cavab vermədin* cümləsində "ancaq" sözü həm bağlayıcı, həm də ədat; *Elə oturmuşdu ki narahat olmağa başladıq* cümləsində "elə" sözü həm əvəzlik, həm də ədat*; Bizdən sonra danışar* cümləsində "sonra" sözü həm zərf, həm də qoşma kimi düşünülə bilər. Digər cümlələrdə testdə verilən kontekstə görə qrammatik mənası müxtəlif cür düşünülə bilən söz yoxdur.
***Doğru cavab:*** 1, 3, 4, 5

**A variantı 25 saylı test tapşırığı**
**B variantı 25 saylı test tapşırığı**
**C variantı 26 saylı test tapşırığı**
**D variantı 23 saylı test tapşırığı**

Verilmiş cümlələrlə bağlı cədvəldəki uyğun fikirləri müəyyən edin.

*1. Yamaclar təzə açılan bahar çiçəkləri ilə dolu idi.*
*2. Külək güllə kimi vıyıldayaraq ağacların budaqlarını onun üzünə çırpırdı.*

| *I cümləyə aid doğru fikirdir* | *II cümləyə aid* ***yanlış*** *fikirdir* |
|---|---|
| 1. Bütün cümlə üzvləri bir-biri ilə sintaktik əlaqədədir.<br>2. Xəbər sifət, təyin isə feili sifət tərkibi ilə ifadə olunmuşdur. | 3. Qoşma ilə işlənmiş söz müstəqil cümlə üzvüdür və xəbərlə birbaşa qrammatik əlaqədədir.<br>4. Tamamlıqlar ismi birləşmə ilə ifadə olunmuşdur. |
| *Hər iki cümləyə aid ortaq doğru fikirdir* | |
| 5. Mübtədanın ifadə vasitəsi isimdir.<br>6. Bütün II dərəcəli cümlə üzvləri işlənmişdir. | |

***Mövzu:*** Sintaksis. Cümlə üzvləri.
***Sinif:*** 8
***Alt-standart:*** 4.1.2

***İzah:*** Cədvələ əsasən 1-ci hissəsinə I cümləyə aid doğru fikir müəyyən edilməlidir. *Yamaclar təzə açılan bahar çiçəkləri ilə dolu idi* cümləsinə aid "Bütün cümlə üzvləri bir-biri ilə sintaktik əlaqədədir" fikri yanlışdır, çünki burada işlənmiş mübtəda ilə təyin, mübtəda ilə tamamlıq, təyinlə xəbər arasında sintaktik əlaqə yoxdur. Bu cümlədə xəbər sifət (*dolu*), təyin isə feili sifət tərkibi ilə (*təzə açılan*) ifadə olunmuşdur.

Cədvəlin 2-ci hissəsində II cümləyə aid (*Külək güllə kimi vıyıldayaraq ağacların budaqlarını onun üzünə çırpırdı)* yanlış fikir müəyyənləşməlidir. "Qoşma ilə işlənmiş söz müstəqil cümlə üzvüdür və xəbərlə birbaşa qrammatik əlaqədədir" fikri yanlış olduğundan cədvəlin tələbinə əsasən doğru cavabdır. Çünki qoşma ilə işlənmiş söz (*güllə kimi)* sonrakı sözlə birlikdə (*güllə kimi vıyıldayaraq*) cümlə üzvüdür. "Tamamlıqlar ismi birləşmə ilə ifadə olunmuşdur fikri doğru olduğundan" (*ağacların budaqlarını, onun üzünə* tamamlıqdır*)* cədvələ görə yanlış cavabdır.

Cədvələ görə 5-ci və 6-cı fikirlər hər iki cümləyə aid doğru fikir olmalıdır. *Hər iki cümlədə* mübtədanın ifadə vasitəsi isimdir (*yamaclar, külək*). 6-cı fikir yanlışdır, belə ki, 1-ci cümlədə zərflik, 2-ci cümlədə təyin işlənməmişdir.

***Doğru cavab:*** 2, 3, 5

**A variantı 26 saylı test tapşırığı**
**B variantı 23 saylı test tapşırığı**
**C variantı 24 saylı test tapşırığı**
**D variantı 24 saylı test tapşırığı**

Nümunədəki feillərə əsasən düzgün fikirləri müəyyən edin.

*Könül bir quşdur ki, sevməz əsarət,*
*Daim çırpınır, istəyir hürriyyət.* (A. Səhhət)

1. Bütün feillər xəbər şəklində, indiki zamandadır.
2. Feillərdən biri qayıdış, ikisi məlum növdədir.
3. Bütün feillərin tərkibində iki şəkilçi var.
4. Feillərdən heç birinin kökü omonim deyil.
5. Məlum növdə olan feillərdən biri sadə, digəri düzəltmədir.
6. Feillərdən biri inkarda, ikisi təsdiqdədir.

***Mövzu:*** Feil
***Sinif:*** 6-7
***Alt-standart:*** 4.1.2
***İzah:*** *Könül bir quşdur ki, sevməz əsarət,*
*Daim çırpınır, istəyir hürriyyət*
nümunəsindəki feillər xəbər şəklində olsa da, biri gələcək zamanda olduğundan 1-ci fikir, "istəyir" feilində bir şəkilçi olduğundan 3-cü fikir, məlum növdə olan hər iki feil sadə olduğundan (*sevməz, istəyir*) 5-ci fikir yanlışdır.

Feillərdən biri qayıdış (çırpını), ikisi məlum növdədir (sevməz, istəyir). Feillərdən heç birinin kökü (sev, çırp, istə) omonim deyil. Feillərdən biri inkarda, ikisi təsdiqdədir.

***Doğru cavab:*** 2 ,4, 6

**A variantı 27 saylı test tapşırığı**
**B variantı 27 saylı test tapşırığı**
**C variantı 27 saylı test tapşırığı**
**D variantı 27 saylı test tapşırığı**

Frazeoloji birləşmələrin sinonimliyi ilə bağlı uyğunluğu müəyyən edin.

1. boynundan atmaq
2. cin atına minmək
3. gözə kül üfürmək

a. gözdən pərdə asmaq
b. zəncir çeynəmək
c. gözünün odunu almaq
d. yaxasını kənara çəkmək
e. hirsi başına vurmaq

***Mövzu****: Leksikologiya. Frazeoloji birləşmələr.*
***Sinif:*** *5-11*
***Alt-standart:*** 2.1.1
***İzah:*** *Boynundan atmaq* frazeoloji birləşməsinin sinonimi *yaxasını kənara çəkmək* olub, yəni məsuliyyətdən qaçmaq, iştirak etməkdən imtina etmək deməkdir; hirslənmək, qəzəblənmək mənasında işlənən *cin atına minmək, zəncir çeynəmək, hirsi başına vurmaq* birləşmələri də sinonimlik təşkil edir; *gözə kül üfürmək* frazeoloji birləşməsinin sinonimi *gözdən pərdə asmaq* olub, aldatmaq, həqiqəti gizlətmək, saxtakarlıq etmək deməkdir. *Gözünün odunu almaq* qorxutmaq, hədələmək mənasında olub verilən heç bir ifadə ilə sinonimlik təşkil etmir.

***Doğru cavab:*** 1 – d: 2 – b, e: 3 – a

***Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və 28 – 30 saylı tapşırıqları <u>Cavab vərəqində</u> yerinə yetirin.***

**Mükəmməllik axtarışında**

▲ İnsanlar çox zaman mükəmməllik və qüsursuzluq axtarışında olurlar, lakin, adətən, buna nail ola bilmirlər. Belələrinin öz hədəflərinə çata bilməməsi və buna görə də mənəvi rahatlıq tapmaması bizi də ümidsizləşdirir, hətta fəaliyyətsizləşdirir.

● Nəyi isə tam qüsursuz hala gətirməyi hədəfə almışıqsa, demək, uduzacağımız mübarizəyə girişmiş oluruq. Bütün diqqətimizi ancaq qüsurlara yönəldəndə halımızdan narazı, şikayətçi oluruq. Bu isə bizi əsas *hədəfimizdən*[1] – mehriban və yaxşı insan olmaqdan uzaqlaşdırır, əsəbi və pessimist edir.

Məqsədimizə çatmamağımız o demək deyil ki, daha əlimizdən gələni etməməliyik. Hər bir işi həll etməyin başqa yolları da var. Amma bu yolların axtarışında olmaq hal-hazırkı vəziyyətdən zövq almamaq, yaxşı cəhətləri görməmək demək deyil. Məsələ bunun *fərqinə varmaqdır*[2].

■ Burada çıxış yolu mövcud problemi həll etməyə çalışanda özümüzü toplamaq və təmkinli olmaqdır. Belə olan *təqdirdə*[3] həyatın bütünlüklə problemlərdən ibarət olmadığını görəcəyik. Həyatın hər sahəsində qüsursuzluq axtarışından əl çəkdikcə onun içindəki ............... . Bu da bizə mənəvi rahatlıq gətirəcək.

**A variantı 28 saylı test tapşırığı**
**B variantı 28 saylı test tapşırığı**
**C variantı 28 saylı test tapşırığı**
**D variantı 28 saylı test tapşırığı**

Əvvəlində işarə qoyulmuş abzasların hər birinin məzmunu haqqında cədvəldəki doğru yanaşmanı qeyd edin (✓) və seçiminizi əsaslandırın.

***Mövzu:****Mətn*
***Sinif:*** *5-11*
***Alt-standart:*** 2.2.3
***Ehtimal edilən doğru cavab variantları:***
▲ Bədbindir. ✓
➢ Çünki qüsursuzluq axtaranlar öz həyatlarında mənəvi rahatlıq tapa bilmirlər;

- mükəmməllik və qüsursuzluq axtarışında olanların məqsədlərinə nail ola bilməməsi (mənəvi rahatlıq tapmaması, özlərini xoşbəxt hiss etməməsi və s.) digər insanları da ümidsiz edir, fəaliyyətsizləşdirir, iş görməkdən, planlarını, arzularını reallaşdırmaqdan uzaqlaşdırır və s.

● Bədbindir. ✓
- Çünki səhvlərlə mübarizəyə girişəndə narazı, şikayətçi oluruq.
- Çünki məqsədə çatmaq ruhsuzluq, həvəssizlik yaradır;
- Çünki səhvləri necə düzəldə biləcəyimizə ilişib qalırıq, bu da bizi bir çox hədəflərdən, məqsədlərdən, bir çox insani keyfiyyətlərdən uzaqlaşdırır, bədbin, pessimist edir və s.

■ Nikbindir. ✓
- Çünki mövcud vəziyyəti yaxşılaşdırmağa cəhd edəndə səbirli olmaq və qüsursuzluqdan əl çəkməklə kamilliyin, həyatdakı gözəlliyin kəşf edilməsi inamı yaradılır;
- Çünki artıq həyatın qüsursuz olmadığı qənaətinə gəlinir. Mükəmməllik, qüsursuzluq axtarışından əl çəkincə hər şeyin çox gözəl olduğuna, mənəvi rahatlıq tapacağına böyük ümid bəslənilir.
- Mövcud problemi həll etməyə çalışdıqda həyatın bütünlüklə problemlərdən ibarət olmadığını görmək lazımdır.

**A variantı 29 saylı test tapşırığı**
**B variantı 29 saylı test tapşırığı**
**C variantı 29 saylı test tapşırığı**
**D variantı 29 saylı test tapşırığı**

Mətndə nöqtələrin yerinə uyğun fikir yazmaqla cümləni tamamlayın.

***Mövzu:*** Mətn
***Sinif:*** 11
***Alt-standart:*** 2.2.3.
***Ehtimal edilən doğru cavab variantları:***
- *gözəllikləri ( müsbət cəhətləri) görəcəyik;*
- *gözəllikləri kəşf edəcəyik;*
- *gözəlliklərin fərqinə varacayıq;*
- *xoşbəxtliyi görəcəyik (anlayacayıq)*
- *qüsurların insan iradəsi qarşısında aciz olduğunu anlayacağıq.*

**A variantı 30 saylı test tapşırığı**
**B variantı 30 saylı test tapşırığı**
**C variantı 30 saylı test tapşırığı**
**D variantı 30 saylı test tapşırığı**

Üzərində rəqəm yazılmış sözlərin kontekstə görə qarşılığını müəyyən edib yazın.

***Mövzu:*** Mətn
***Sinif:*** 8
***Alt-standart:*** 2.1.1.
***Ehtimal edilən doğru cavab variantları:***
1. məqsəd, məram, qayə, amal, kredo,mətləb və s.
2. anlaya bilmək, dərk etmək, qavramaq, fərqini anlamaq, nəzərə almaq, diqqətə almaq və s.
3. halda, vəziyyətdə, situasiyada, məqamda,durum və s.

# Tarix

**A variantı 31 saylı test tapşırığı**
**B variantı 45 saylı test tapşırığı**
**C variantı 41 saylı test tapşırığı**
**D variantı 35 saylı test tapşırığı**

Hadisə-nəticə əlaqələri arasında uyğunluq ***pozulmuşdur***:

| | Hadisə | Nəticə |
|---|---|---|
| 1. | Şəki xanlığında Səlim xanının hakimiyyətə gəlməsi | Şamaxı xanlığı uğrunda Qubalı Fətəli xanla mübarizənin aparılması |
| 2. | Bayat savaşının baş verməsi | Qubalı Fətəli xanın məğlub olaraq Salyana tərəf çəkilməsi |
| 3. | Gəncədə Cavad xanın hakimiyyətə gəlməsi | Xanlığın müstəqilliyinin möhkəmləndirilməsi |
| 4. | 1802-ci ildə Georgiyevsk müqaviləsinin imzalanması | Rusiyanın müqaviləni imzalayan xanlıqlara verdiyi vədləri yerinə yetirməməsi |
| 5. | Kürəkçay müqaviləsinin imzalanması | Şəki xanlığının daxili müstəqilliyinin ləğv edilməsi |

A) 2, 3, 4 B) 1, 4, 5 C) 1, 2, 5
D) 3, 4, 5 E) 1, 2, 3

***Mövzu:*** Azərbaycan xanlıqlar dövründə və XIX əsrin əvvəllərində
***Sinif:*** 8, 11 – Azərbaycan tarixi
***Alt-standart:*** 1.1.2
***İzah:*** Şəki xanlığında Səlim xan Şamaxı xanlığı uğrunda Qubalı Fətəli xanla mübarizə aparmamışdır.
Bayat savaşında Qubalı Fətəli xan iştirak etməmişdir.
Kürəkçay müqaviləsinin imzalanması Şəki xanlığının daxili müstəqilliyinin ləğv edilməsi ilə nəticələnməmişdir.
Gəncədə Cavad xanın hakimiyyətə gəlməsi nəticəsində xanlığın müstəqilliyi möhkəmləndirildi.
Rusiya 1802-ci ildə imzaladığı Georgiyevsk müqaviləsinə görə Azərbaycan xanlarına verdiyi vədləri sonradan yerinə yetirmədi.
***Doğru cavab:*** 1, 2, 5

**A variantı 32 saylı test tapşırığı**
**B variantı 46 saylı test tapşırığı**
**C variantı 43 saylı test tapşırığı**
**D variantı 52 saylı test tapşırığı**

Paleolit və Mezolit dövrlərinin oxşar cəhətləri:
1. İstehlak təsərrüfatının mövcud olması
2. Qadınların cəmiyyətdə mühüm rol oynaması
3. İnsanların mağaralarda məskunlaşması
4. Kiçik ölçülü (mikrolit) əmək alətlərindən istifadə edilməsi
5. Əkinçilik və maldarlığın əsas məşğuliyyət sahəsi olması

A) 2, 3, 4 B) 2, 4, 5 C) 1, 2, 3
D) 1, 4, 5 E) 1, 3, 5

***Mövzu:*** İbtidai İcma quruluşu
***Sinif:*** 6, 10 - Azərbaycan tarixi
***Alt-standart:*** 1.3.1
***İzah:*** İstehlak təsərrüfatının mövcud olması, qadınların cəmiyyətdə mühüm rol oynaması, insanların mağaralarda məskunlaşması Paleolit və Mezolit dövrlərinin oxşar cəhətləridir.
***Doğru cavab:*** 1,2,3

**A variantı 33 saylı test tapşırığı**
**B variantı 34 saylı test tapşırığı**
**C variantı 42 saylı test tapşırığı**
**D variantı 37 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.

| *Baharlı Cahanşah* | |
|---|---|
| *1. Daxili siyasəti* | *2. Xarici siyasəti* |
| a. Hərbi islahatın həyata keçirilməsi<br>b. Hakimiyyətə qarşı qiyamın yatırılması<br>c. Teymurilərlə müharibə aparılması<br>d. Yarımköçmə əmirlərə qarşı mübarizə aparılması | a. Herat sülhünün imzalanması<br>b. Venesiya ilə hərbi ittifaqın bağlanması<br>c. Şirvanşahlarla ittifaqın qurulması<br>d. Qızıl Orduya qarşı mübarizə aparılması |

A) 1 – a, c; 2 – a, c
B) 1 – b, c; 2 – a
C) 1 – c; 2 – a, b, d
D) 1 – a, b, d; 2 – a, c
E) 1 – a, b, d; 2 – a, b, c

***Mövzu:*** Azərbaycan XV əsrdə
***Sinif:*** 7, 10 – Azərbaycan tarixi
***Alt-standart:*** 4.1.1
***İzah:*** Hərbi islahatın həyata keçirilməsi, hakimiyyətə qarşı qiyamın yatırılması, yarımköçmə əmirlərə qarşı mübarizə aparılması Baharlı Cahanşahın daxili siyasətinə aiddir. Herat sülhünün imzalanması, Şirvanşahlarla ittifaqın qurulması Baharlı Cahanşahın xarici siyasətinə aiddir.
***Doğru cavab:*** 1 – a, b, d; 2 – a, c

**A variantı 34 saylı test tapşırığı**
**B variantı 52 saylı test tapşırığı**
**C variantı 50 saylı test tapşırığı**
**D variantı 50 saylı test tapşırığı**

Albaniyanın VI əsrin ikinci yarısı tarixi üçün xarakterik idi:
1. Mehranilər sülaləsinin nümayəndələri tərəfindən idarə edilməyə başlanması
2. Yerli hökmdarlar tərəfindən idarə edilməsi
3. Sasanilərin şimal canişinliyinin tərkibində olması
4. Müsəlman olmayanlardan cizyə vergisinin alınması

A) yalnız 3
B) 1, 4
C) 1, 2
D) 3, 4
E) yalnız 2

***Mövzu:*** Azərbaycan III-VII əsrlərdə
***Sinif:*** *7, 10-* Azərbaycan tarixi
***Alt-standart:*** 1.1.1
***İzah:*** VI əsrin ikinci yarısında Albaniya Sasanilərin şimal canişinliyinin tərkibində olmuşdur.
***Doğru cavab:*** yalnız 3

**A variantı 35 saylı test tapşırığı**
**B variantı 41 saylı test tapşırığı**
**C variantı 44 saylı test tapşırığı**
**D variantı 44 saylı test tapşırığı**

İkinci Dünya müharibəsinə daxil olduqdan sonra ABŞ:
1. "Lend-liz haqqında qanun" qəbul etdi.
2. Atlantika xartiyası adlanan sənəd imzaladı.
3. Yaponiyaya qarşı hərbi əməliyyatlar apardı.
4. Miduey döyüşündə qələbə qazandı.
5. İkinci cəbhənin açılmasında iştirak etdi.

A) 1, 2, 5
B) 2, 4, 5
C) 1, 3, 4
D) 3, 4, 5
E) 1, 2, 3

***Mövzu:*** Dünya ölkələri XX əsrin 20-40-cı illərində və II Dünya müharibəsi illərində
***Sinif:*** 9, 11 - Ümumi tarix
***Alt-standart:*** 1.1.2
***İzah:*** İkinci Dünya müharibəsinə daxil olduqdan sonra ABŞ Yaponiyaya qarşı hərbi əməliyyatlar apardı, Miduey döyüşündə qələbə qazandı, ikinci cəbhənin açılmasında iştirak etdi
***Doğru cavab:*** 3, 4, 5

**A variantı 36 saylı test tapşırığı**
**B variantı 35 saylı test tapşırığı**
**C variantı 45 saylı test tapşırığı**
**D variantı 47 saylı test tapşırığı**

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Avropa dövlətləri ilə münasibətlərə önəm verirdi. Avropaya ilk rəsmi səfəri zamanı aparılan danışıqlar nəticəsində ölkəmiz Avropa təhlükəsizlik sisteminə doğru ciddi şəkildə irəlilədi.
Mətndə verilən səfərə əsasən Azərbaycan Respublikası ilə bağlı hansı ifadə(lər) doğrudur?
1. 1990-cı ildə qəbul edilmiş Paris xartiyasının imzalanması
2. Azərbaycanın BMT nizamnaməsinə əməl edəcəyini təsdiqləməsi
3. Ölkəmizin ATƏT-in Minsk qrupuna qoşulması
4. BMT Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunması ilə bağlı qətnamə qəbul etməsi

A) 1 və 2
B) 2 və 3
C) 3 və 4
D) yalnız 1
E) yalnız 4

***Mövzu:*** Müstəqilliyin bərpa olunması. XX əsrin sonları və XXI əsrin əvvəllərində Azərbaycanın daxili və xarici siyasəti
***Sinif:*** 9, 11 - Azərbaycan tarixi
***Alt-standart:*** 4.1.1 3.1.2
***İzah:*** Mətndə verilən səfərə əsasən Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev 1990-cı ildə qəbul edilmiş Paris xartiyasını imzaladı və Azərbaycanın BMT nizamnaməsinə əməl edəcəyini təsdiqlədi.
***Doğru cavab:*** 1 və 2

**A variantı 37 saylı test tapşırığı**
**B variantı 44 saylı test tapşırığı**
**C variantı 38 saylı test tapşırığı**
**D variantı 42 saylı test tapşırığı**

Manna hökmdarları Ullusunu və Uallinin hakimiyyəti dövrlərinə aid ümumi cəhət:
A) Urartu tərəfindən işğal edilmiş Manna torpaqlarının qaytarılması
B) Assuriya ilə ittifaqın bərpa edilməsi
C) Əhəməni dövləti ilə mübarizə aparılması
D) e.ə. VII əsrin ikinci yarısında dövləti idarə etmələri
E) mərkəzi hakimiyyətə qarşı baş vermiş üsyanların II Sarqon tərəfindən yatırılması

***Mövzu:*** Azərbaycanda Qədim dövlətlər
***Sinif:*** 6, 10 - Azərbaycan tarixi
***Alt-standart:*** 4.1.1
***İzah:*** Assuriya ilə ittifaqın bərpa edilməsi Manna hökmdarları Ullusunu və Uallinin hakimiyyəti dövrlərinə aid ümumi cəhətdir.
***Doğru cavab:*** Assuriya ilə ittifaqın bərpa edilməsi

**A variantı 38 saylı test tapşırığı**
**B variantı 42 saylı test tapşırığı**
**C variantı 49 saylı test tapşırığı**
**D variantı 41 saylı test tapşırığı**

Romada plebeylərin patrisilərlə mübarizəsinin nəticəsi:
A) Patrisilər dövlətin idarə edilməsində plebeylərin iştirakına icazə vermədilər.
B) Plebeylər Roma ordusunda xidmət etmək hüququ əldə etdilər.
C) Patrisilər hər il xalq tribunu seçmək hüququ əldə etdilər.
D) Plebeylər tamhüquqlu Roma vətəndaşı oldular.
E) Patrisilər dövlət torpağından istifadə etmək hüququndan məhrum edildilər.

***Mövzu:*** Qədim Roma
***Sinif:*** 6, 10 - Ümumi tarix
***Alt-standart:*** 1.1.2
***İzah:*** Romada plebeylərin patrisilərlə mübarizəsinin nəticəsində Plebeylər tamhüquqlu Roma vətəndaşı oldular.
***Doğru cavab:*** Plebeylər tamhüquqlu Roma vətəndaşı oldular.

**A variantı 39 saylı test tapşırığı**
**B variantı 33 saylı test tapşırığı**
**C variantı 48 saylı test tapşırığı**
**D variantı 49 saylı test tapşırığı**

Osmanlı sultanı I Süleymanın hakimiyyəti dövrü üçün səciyyəvi idi:
1. Paytaxtın Ədirnəyə köçürülməsi
2. İspaniya donanmasının məğlubiyyətə uğradılması
3. Səfəvi dövləti ilə sülh imzalanması
4. Bolqarıstanın işğal edilməsi
5. Moxaç döyüşündə qələbə qazanması

A) 1, 4, 5 B) 1, 2, 4 C) 3, 4, 5
D) 2, 3, 5 E) 1, 2, 3

***Mövzu:*** Osmanlı dövləti XIV-XVI əsrlərdə
***Sinif:*** 7, 10 - Ümumi tarix
***Alt-standart:*** 4.1.1
***İzah:*** İspaniya donanmasının məğlubiyyətə uğradılması, Səfəvi dövləti ilə sülh imzalanması və Moxaç döyüşündə qələbə qazanılması Osmanlı sultanı I Süleymanın hakimiyyəti dövrü üçün səciyyəvi idi.
***Doğru cavab:*** 2, 3, 5

**A variantı 40 saylı test tapşırığı**
**B variantı 48 saylı test tapşırığı**
**C variantı 44 saylı test tapşırığı**
**D variantı 43 saylı test tapşırığı**

1787-ci ildə qəbul edilən ABŞ Konstitusiyasına əsasən uyğunluğu müəyyən edin.

| | |
|---|---|
| *1. Qanunverici hakimiyyət* | a. İcra hakimiyyətinin işini yoxlama səlahiyyətinə malik olması<br>b. Yuxarı palatanın Nümayəndələr palatası adlandırılması<br>c. Konqres adlandırılması |
| *2. İcraedici hakimiyyət* | a. Prezident tərəfindən rəhbərlik edilməsi<br>b. Rəhbərinin ömürlük seçilməsi<br>c. Qanunlara veto qoymaq hüququnun olmaması |
| *3. Məhkəmə hakimiyyəti* | a. Qanunların Konstitusiyaya uyğunluğuna nəzarət etməsi<br>b. Rəhbərinin birbaşa xalq tərəfindən seçilən nümayəndə olması<br>c. Hərbi qüvvələrə rəhbərlik etmək səlahiyyətlərinə malik olması |

A) 1 – a, c; 2 – a; 3 – a B) 1 – c; 2 – a; 3 – a, b
C) 1 – a; 2 – b, c; 3 – b D) 1 – a, b; 2 – b; 3 – c
E) 1 – b, c; 2 – c; 3 – a

***Mövzu:*** ABŞ, İngiltərə, Rusiya və Osmanlı XVII-XVIII əsrlərdə
***Sinif:*** 8,10 - Ümumi tarix
***Alt-standart:*** 1.1.2
***İzah:*** 1787-ci ildə qəbul edilən ABŞ konstitusiyasına əsasən qanunverici hakimiyyət icra hakimiyyətinin işini yoxlama səlahiyyətinə malik idi və Konqres adlandırılırdı. İcraedici hakimiyyətə prezident tərəfindən rəhbərlik edilirdi. Məhkəmə hakimiyyəti qanunların Konstitusiyaya uyğunluğuna nəzarət edirdi.
***Doğru cavab:*** 1 – a, c; 2 – a; 3 – a

**A variantı 41 saylı test tapşırığı**
**B variantı 47 saylı test tapşırığı**
**C variantı 52 saylı test tapşırığı**
**D variantı 48 saylı test tapşırığı**

Xəritədə ştrixlənmiş ərazidə mövcud olmuş Azərbaycan dövlətinə aiddir:




A) Bir müddət Sacilər və Salarilər dövlətindən asılı vəziyyətdə olması
B) Oğuz-Səlcuq türkləri ilə ittifaqda Bizans, erməni və gürcü feodallarına qarşı mübarizə aparması
C) Slavyanların yürüşləri nəticəsində paytaxtının böyük dağıntılara məruz qalması

D) Eramızın əvvəllərində Parfiya Arşakiləri tərəfindən işğal olunması
E) İskit padşahlığı ilə ittifaqda Assuriya dövlətinə qarşı mübarizə aparması

***Mövzu:*** Azərbaycan IX əsrin 2-ci yarısı – XI əsrin 1-ci yarısında
***Sinif:*** 7, 10 -Azərbaycan tarixi
***Alt-standart:*** 2.1.2
***İzah:*** Xəritədə ştrixlənmiş ərazi Şəddadilər dövlətinin ərazisidir. Şəddadilər dövləti XI əsrdə Oğuz-Səlcuq türkləri ilə ittifaqda Bizans, erməni və gürcü feodallarına qarşı mübarizə aparmışdır.
***Doğru cavab:*** Oğuz-Səlcuq türkləri ilə ittifaqda Bizans, erməni və gürcü feodallarına qarşı mübarizə aparması

**A variantı 42 saylı test tapşırığı**
**B variantı 50 saylı test tapşırığı**
**C variantı 37 saylı test tapşırığı**
**D variantı 38 saylı test tapşırığı**

XVII əsrin ikinci yarısı Azərbaycanın dövlət idarəçiliyində iştirak etmiş vəzifəli şəxslər sırasına daxil ***deyil***:
1. sancaqbəyi
2. vəzir
3. qolbəyi
4. noyon
5. bəylərbəyi

A) 1, 2 B) 2, 5 C) 3, 5 D) 3, 4 E) 1, 4

***Mövzu:*** Səfəvi dövləti XVII əsrdə
***Sinif:*** 8, 10 – Azərbaycan tarixi
***Alt-standart:*** 3.1.1
***İzah:*** XVII əsrin ikinci yarısında sancaqbəyi və noyon Azərbaycanın dövlət idarəçiliyində iştirak etmiş vəzifəli şəxslər sırasına daxil deyil. Digər bəndlərdə verilən vəzifəli şəxslər isə XVII əsrin ikinci yarısında Azərbaycanın dövlət idarəçiliyində iştirak etmişdir.
***Doğru cavab:*** 1, 4

**A variantı 43 saylı test tapşırığı**
**B variantı 43 saylı test tapşırığı**
**C variantı 36 saylı test tapşırığı**
**D variantı 40 saylı test tapşırığı**

Şimali Azərbaycanda keçirilən 1870-ci il kəndli islahatı, 1847-ci il "Kəndli əsasnamələri"ndən fərqli olaraq:
1. Dövlət kəndlilərinə aid edilməmişdi.
2. Feodal asılı münasibətlərinə güclü zərbə endirdi.
3. Malcəhət vergisinin ödənilməsini nəzərdə tuturdu.
4. Kəndliyə öz pay torpağını satın alıb öz mülkiyyətinə keçirmək hüququ vermişdi.
5. Kəndlilərə yararlı torpaq payının ayrılmasını nəzərdə tuturdu.

A) 1, 5 B) 3, 4 C) 2, 4 D) 1, 3 E) 2, 5

***Mövzu:*** Azərbaycan XIX əsrdə
***Sinif:*** 9, 11 – Azərbaycan tarixi
***Alt-standart:*** 1.3.1
***İzah:*** Şimali Azərbaycanda keçirilən 1870-ci il kəndli islahatı, 1847-ci il "Kəndli əsasnamələri"ndən fərqli olaraq, feodal asılı münasibətlərinə güclü zərbə endirdi və kəndliyə öz pay torpağını satın alıb öz mülkiyyətinə keçirmək hüququ vermişdir.
***Doğru cavab:*** 2, 4

**A variantı 44 saylı test tapşırığı**
**B variantı 49 saylı test tapşırığı**
**C variantı 32 saylı test tapşırığı**
**D variantı 45 saylı test tapşırığı**

Eyler-Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin.




a. Böyük Azadlıqlar xartiyasının imzalanması
b. Səlib yürüşlərində iştirak etməsi
c. Azenkur döyüşündə qalib gəlməsi
d. Yüzillik müharibədə iştirak etməsi
e. Jaklar üsyanının baş verməsi

A) I – c, e; II – d; III – a, b
B) I – a; II – b, e; III – c, d
C) I – d; II – a, e; III – b, c
D) I – e; II – a, c; III – b, d
E) I – a, b; II – e, III – c, d

***Mövzu:*** Avropa ölkələri orta əsrlərdə
***Sinif:*** 7, 10 - Ümumi tarix
***Alt-standart:*** 3.1.2
***İzah:*** Jaklar üsyanının baş verməsi Fransa krallığının İngiltərə krallığından fərqli cəhətidir, Böyük Azadlıqlar xartiyasının imzalanması və Azenkur döyüşündə qalib gəlməsi İngiltərə krallığının Fransa krallığından fərqidir. Səlib yürüşlərində və Yüzillik müharibədə iştirak etməsi isə hər iki dövlətin oxşar cəhətidir.
***Doğru cavab:*** I – e; II – a, c; III – b, d

**A variantı 45 saylı test tapşırığı**
**B variantı 32 saylı test tapşırığı**
**C variantı 31 saylı test tapşırığı**
**D variantı 43 saylı test tapşırığı**

Ərəb xilafəti və Böyük Səlcuq dövlətinin tarixlərinə aid ümumi cəhətlər:
1. Azərbaycanı özlərinə tabe etmələri
2. Çinə hərbi yürüş etmələri
3. Qərbi Avropaya hərbi yürüş etmələri
4. Xidmətə görə iqta torpaqlarını paylamaları

A) 1, 2 B) 2, 4 C) 1, 3 D) 2, 3 E) 1, 4

***Mövzu:*** Azərbaycan Xilafətin tərkibində
***Sinif:*** 7, 10 – Azərbaycan tarixi
***Alt-standart:*** 3.1.1
***İzah:*** Azərbaycanın tabe edilməsi və xidmətə görə iqta torpaqlarının paylanması Ərəb xilafəti və Böyük Səlcuq dövlətinin tarixlərinə aid ümumi cəhətlərdir.
***Doğru cavab:*** 1, 4

**A variantı 46 saylı test tapşırığı**
**B variantı 31 saylı test tapşırığı**
**C variantı 39 saylı test tapşırığı**
**D variantı 39 saylı test tapşırığı**

Birinci Dünya müharibəsi illərində Cənubi Azərbaycanda:
A) S.C. Pişəvərinin rəhbərliyi ilə Milli Hökumət təşkil edildi.
B) Ş.M. Xiyabaninin rəhbərlik etdiyi ADP təşkil edildi.
C) Milli hökumət süqut etdi.

D) Ş.M. Xiyabaninin rəhbərliyi ilə Milli Hökumət yarandı.
E) 21 Azər hərəkatı baş verdi.

*Mövzu:* Azərbaycan XX əsrin əvvəllərində. I Dünya müharibəsi illərində.
***Sinif:*** 9, 11 - Azərbaycan tarixi
***Alt-standart:*** 1.1.1
***İzah:*** Birinci Dünya müharibəsi illərində Cənubi Azərbaycanda 1917-ci ildə Ş.M. Xiyabaninin rəhbərlik etdiyi ADP təşkil edildi.
Digər bəndlərdə verilən cavablar yalnışdır
***Doğru cavab:*** Ş.M. Xiyabaninin rəhbərlik etdiyi ADP təşkil edildi.

**A variantı 47 saylı test tapşırığı**
**B variantı 37 saylı test tapşırığı**
**C variantı 33 saylı test tapşırığı**
**D variantı 31 saylı test tapşırığı**

Şimali Azərbaycanda çarizmə qarşı əhalinin kütləvi çıxışlarının qarşısını almaq üçün XIX əsrin 40-cı illərinin ikinci yarısında görülmüş tədbirlərə aiddir:
A) mülkədarların kəndlilər üzərindəki polis hakimiyyəti hüququnun ləğv edilməsi, hərbi məhkəmələrin yaradılması
B) dövlət kəndlilərinin torpaq üzərində mülkiyyət hüququnun təsdiq edilməsi, torpağın kəndlilərin irsi istifadəsinə verilməsi
C) kəndlilərin şəxsi asılılığının təsdiq edilməsi və sahibkar kəndlilərinin köçmə hüququnun məhdudlaşdırılması
D) pay torpaqlarının məcburi satın alınması üçün dövlətin kəndlilərə maddi yardım etməsi
E) ali müsəlman silkinin torpaq üzərində irsi mülkiyyət hüququnun təsdiq edilməsi

*Mövzu:* Azərbaycan XIX əsrin 30-50-ci illərində
***Sinif:*** 9, 11 – Azərbaycan tarixi
***Alt-standart:*** 1.3.1
***İzah:*** Şimali Azərbaycanda çarizmə qarşı əhalinin kütləvi çıxışlarının qarşısını almaq üçün 1846-cı ildə çarın imzaladığı reskriptlə ali müsəlman silkinin torpaq üzərində irsi mülkiyyət hüququ təsdiq edildi.
***Doğru cavab:*** ali müsəlman silkinin torpaq üzərində irsi mülkiyyət hüququnun təsdiq edilməsi

**A variantı 48 saylı test tapşırığı**
**B variantı 51 saylı test tapşırığı**
**C variantı 50 saylı test tapşırığı**
**D variantı 32 saylı test tapşırığı**

Xəritədə ulduzla işarələnmiş rayona aid səciyyəvi cəhətləri müəyyən edin.



1. 2024-cü ildə dövlət başçısı burada prezident seçkilərində səsvermədə iştirak etmişdir.
2. 10 noyabr bəyanatına əsasən rayon mərkəzi azad edilmişdir.
3. Antiterror əməliyyatları ərəfəsində ərazisində sülhməramlı kontingent yerləşirdi.
4. Ərazisində Alban memarlıq abidəsi yerləşir.

A) 1, 3 B) 2, 4 C) 3, 4 D) 1, 4 E) 2, 3

*Mövzu:* II Qarabağ müharibəsi. Antiterror əməliyyatı.
***Sinif:*** 9, 11 - Azərbaycan tarixi
***Alt-standart:***
***İzah:*** Xəritədə ulduzla işarələnmiş rayon Xocavənd rayonudur. Antiterror əməliyyatları ərəfəsində ərazisində sülhməramlı kontingent yerləşirdi. Ərazisində Alban memarlıq abidəsi olan Amaras monastrı yerləşir.
***Doğru cavab:*** 3, 4

**A variantı 49 saylı test tapşırığı**
**B variantı 36 saylı test tapşırığı**
**C variantı 35 saylı test tapşırığı**
**D variantı 34 saylı test tapşırığı**

Bizans dövlətinin sxemdə verilən dövlətlərlə ümumi cəhətlərini müəyyən edin.

| *1. Birinci Göytürk dövləti* | *2. Ağ Hun dövləti* | *3. Albaniya dövləti* |
|---|---|---|
| a. sasanilərlə müharibə etməsi | a. Hindistana yürüş edilməsi | a. Rəşidi xəlifələrinin qoşunlarına qarşı mübarizə aparılması |
| b. xalqların böyük köçü dövründə yaranması | b. Göytürklərin hücumuna məruz qalması | b. Səlcuqların hücumlarına məruz qalması |
| c. Çini asılı hala salması | c. IV əsrdə yaranması | c. Attilaya xərac ödənilməsi |

A) 1 – b, c; 2 – a, c; 3 – a
B) 1 – b, c; 2 – a; 3 – a, c
C) 1 – a, b; 2 – b, c; 3 – a
D) 1 – b; 2 – a; 3 – a, c
E) 1 – a, c; 2 – b, c; 3 – b

*Mövzu:* Türk dövlətləri orta əsrlərdə
***Sinif:*** 7, 10 - Ümumi tarix
***Alt-standart:*** 3.1.2
***İzah:*** Sasanilərlə müharibə aparılması və xalqların böyük köçü dövründə yaranması Birinci Göytürk dövlətinin Bizans dövləti ilə oxşar cəhətidir. Göytürklərin hücumuna məruz qalması və IV əsrdə yaranması Ağ Hun dövlətinin Bizans dövləti ilə oxşar cəhətidir. Rəşidi xəlifələrinin qoşunlarına qarşı mübarizə aparılması Albaniya dövlətinin Bizans dövləti ilə oxşar cəhətidir.
***Doğru cavab:*** 1 – a, b; 2 – b, c; 3 – a

**A variantı 50 saylı test tapşırığı**
**B variantı 40 saylı test tapşırığı**
**C variantı 51 saylı test tapşırığı**
**D variantı 36 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.

Azərbaycan SSR

1. XX əsrin 50-ci illəri
   - a. Yeni Konstitusiyanın qəbul edilməsi
   - b. Kartoçka sisteminin ləğv edilməsi
   - c. Ermənistanda yaşayan azərbaycanlıların Azərbaycana məcburi köçürülməsinin davam etdirilməsi

2. XX əsrin 60-cı illəri
   - a. Milli Azərbaycan Qərargahının yaradılması
   - b. İcbari onillik təhsilin tətbiq edilməsi
   - c. Dövlət dilinin Azərbaycan dili olması haqqında Konstitusiyaya maddə əlavə olunması

A) 1 – a, b; 2 – c
B) 1 – c; 2 – b, c
C) 1 – a, c; 2 – a
D) 1 – c; 2 – a, b
E) 1 – a; 2 – a, b

***Mövzu:*** Azərbaycan XX əsrin 20-80-ci illərində.
***Sinif:*** 9, 11 - Azərbaycan tarixi
***Alt-standart:*** 1.1.2
***İzah:*** Azərbaycan SSR-nin XX əsrin 50-ci illərinə Ermənistanda yaşayan azərbaycanlıların Azərbaycana məcburi köçürülməsinin davam etdirilməsi,
XX əsrin 60-cı illərinə isə Milli Azərbaycan Qərargahının yaradılması və icbari onillik təhsilin tətbiq edilməsi aiddir.
***Doğru cavab:*** 1 – c; 2 – a, b

**A variantı 51 saylı test tapşırığı**
**B variantı 39 saylı test tapşırığı**
**C variantı 47 saylı test tapşırığı**
**D variantı 46 saylı test tapşırığı**

Eldəniz hökmdarı Qızıl Arslanın fəaliyyəti üçün xarakterik ***deyil***:

A) Mərkəzi hakimiyyətə tabe olmaq istəməyən feodallara qarşı mübarizə aparılması
B) Şirvanşahların vassal asılılığına salınması
C) Dövlətin siyasi vəziyyətinin möhkəmlənməsi
D) Həmədan vuruşmasında qalib gəlməsi
E) Paytaxtın Həmədan şəhərinə köçürülməsi

***Mövzu:*** Atabəylər dövləti
***Sinif:*** 7, 10 - Azərbaycan tarixi
***Alt-standart:*** 4.1.1
***İzah:*** Paytaxtın Həmədan şəhərinə köçürülməsi Qızıl Arslanın fəaliyyəti ilə bağlı deyil. Məhəmməd Cahan Pəhləvanın fəaliyyəti ilə bağlıdır. Digər bəndlərdə verilən cavablar isə Qızıl Arslanın fəaliyyətinə aiddir.
***Doğru cavab:*** Paytaxtın Həmədan şəhərinə köçürülməsi

**A variantı 52 saylı test tapşırığı**
**B variantı 38 saylı test tapşırığı**
**C variantı 46 saylı test tapşırığı**
**D variantı 51 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.

XIII əsr Azərbaycan şəhərləri:




a. Səlcuqların hücumuna məruz qalmışdır.
b. 1225-ci ildə Cəlaləddinin ordusu tərəfindən tutuldu.
c. Monqolların birinci yürüşü zamanı dağıdılmışdır.
d. Monqollar tərəfindən tutulması ilə Azərbaycanın işğalı tamamilə başa çatdı.
e. Cəlairilər dövlətinin paytaxtı olmuşdur.

A) 1 – d; 2 – b; 3 – c
B) 1 – d; 2 – b; 3 – a
C) 1 – a, b; 2 – e; 3 – c, d
D) 1 – a, c; 2 – b, e; 3 – d
E) 1 – c; 2 – a; 3 – d

***Mövzu:*** Azərbaycanda monqol yürüşləri
***Sinif:*** 7, 10 - Azərbaycan tarixi
***Alt-standart:*** 2.1.2
***İzah:*** Xəritədə rəqəmlə işarələnmiş şəhərlərdən Monqollar tərəfindən tutulması ilə Azərbaycanın işğalı tamamilə başa çatması Dərbənd şəhərinə (1) aiddir. 1225-ci ildə Cəlaləddinin ordusu tərəfindən tutulması Təbriz şəhərinə (2) aiddir. Monqolların birinci yürüşü zamanı dağıdılması Şamaxı şəhərinə (3) aiddir. Digər bəndlərdə verilən cavablar xəritədə qeyd olunan şəhərlərə aid deyil.
***Doğru cavab:*** 1 – d; 2 – b; 3 – c

**A variantı 53 saylı test tapşırığı**
**B variantı 53 saylı test tapşırığı**
**C variantı 56 saylı test tapşırığı**
**D variantı 55 saylı test tapşırığı**

AXC-nin Tiflis və Bakı dövrlərinə aid ümumi cəhətləri müəyyən edin.

1. Müəyyən müddət Milli Şuranın fəaliyyət göstərməsi
2. Qanunverici orqan olan parlamentin fəaliyyət göstərməsi
3. Qonşu dövlətlə hərbi əməkdaşlıq barədə müqavilə imzalanması
4. F. Xoyskinin rəhbərliyi ilə hökumətin təşkil edilməsi
5. Hökumətin qanunverici səlahiyyətlərə malik olması

***Mövzu:*** Azərbaycan Xalq Cümhuriyyəti
***Sinif:*** 9, 11 - Azərbaycan tarixi
***Alt-standart:*** 1.1.1
***İzah:*** Müəyyən müddət Milli Şuranın fəaliyyət göstərməsi, qonşu dövlətlə hərbi əməkdaşlıq barədə müqavilə imzalanması və F. Xoyskinin rəhbərliyi ilə hökumətin təşkil edilməsi AXC-nin Tiflis və Bakı dövrlərinə aid ümumi cəhətləridir.
***Doğru cavab:*** 1,3,4

**A variantı 54 saylı test tapşırığı**
**B variantı 54 saylı test tapşırığı**
**C variantı 55 saylı test tapşırığı**
**D variantı 54 saylı test tapşırığı**

I Aleksandr və I Nikolayın fəaliyyətinə aid ümumi cəhətləri müəyyən edin.

1. Fransız hərbi qüvvələri ilə mübarizə aparması
2. Qacarlar dövləti ilə mübarizə aparılması
3. Azərbaycan xanlıqları ilə müqavilə imzalaması
4. Qara dənizə çıxış uğrunda mübarizə aparılması

***Mövzu:*** Dünya dövlətləri XIX-XX əsrin əvvəllərində
***Sinif:*** 9, 11 - Ümumi tarix
***Alt-standart:*** 2.1.2
***İzah:*** Fransız hərbi qüvvələri ilə və Qacarlar dövləti ilə mübarizə aparılması Rusiya hökmdarları I Aleksandr və I Nikolayın fəaliyyətinə aid ümumi cəhətlərdir. Digər cavablar doğru deyildir.
***Doğru cavab:*** 1 və 2

**A variantı 55 saylı test tapşırığı**
**B variantı 55 saylı test tapşırığı**
**C variantı 54 saylı test tapşırığı**
**D variantı 53 saylı test tapşırığı**

Xronoloji ardıcıllığı müəyyən edin.

1. Qızıl Ordu dövlətində islam dininin rəsmi dövlət dini kimi qəbul edilməsi
2. Qızıl Ordu xanı Əhməd xanın Moskva knyazlığına yürüş etməsi
3. Qızıl Ordu dövləti və Hülakülər arasında müharibələrin başlaması
4. Təbriz şəhərinin Toxtamışın qoşunları tərəfindən tutulması

***Mövzu:*** Şərq ölkələri orta əsrlərdə
***Sinif:*** 7, 10 - Ümumi tarix
***Alt-standart:***
***İzah:*** Qızıl Ordu dövlətində islam dininin rəsmi dövlət dini kimi qəbul edilməsi XIV əsrin I yarısında baş vermişdir. Qızıl Ordu xanı Əhməd xanın Moskva knyazlığına yürüş etməsi 1480-ci baş vermişdir. Qızıl Ordu dövləti və Hülakülər arasında müharibələr XIII əsrin II yarısında başlanmışdır. Təbriz şəhəri Toxtamışın qoşunları tərəfindən 1385-ci ildə tutulmuşdur.
***Doğru cavab:*** 3, 1, 4, 2

**A variantı 56 saylı test tapşırığı**
**B variantı 56 saylı test tapşırığı**
**C variantı 53 saylı test tapşırığı**
**D variantı 56 saylı test tapşırığı**

Elm və mədəniyyət xadimlərinin fəaliyyətinə aid olan doğru sıraları müəyyən edin.

| | *Elm və mədəniyyət xadimi* | *Fəaliyyəti* |
|---|---|---|
| 1. | Həsən bəy Rumlu | XV əsrdə yaşamış məşhur tarixçi idi. |
| 2. | İsgəndər bəy Münşi | Şah I Abbasın hərbi yürüşlərində iştirak etmişdir. |
| 3. | Məhəmməd Tahir Vahid | Şah II Abbasın vəziri olmuşdur. |
| 4. | Kəmaləddin Behzad | Marağa rəsədxanasında astronom kimi fəaliyyət göstərmişdir. |

***Mövzu:*** Azərbaycan mədəniyyəti
***Sinif:*** 8, 10 - Azərbaycan tarixi
***Alt-standart:*** 5.1.1
***İzah:*** İsgəndər bəy Münşi Şah I Abbasın hərbi yürüşlərində iştirak etmişdir. Məhəmməd Tahir Vahid II Şah Abbasın vəziri olmuşdur.
***Doğru cavab:*** 2, 3

**A variantı 57 saylı test tapşırığı**
**B variantı 57 saylı test tapşırığı**
**C variantı 57 saylı test tapşırığı**
**D variantı 57 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.

1. Şah Məhəmməd Xudabəndə
2. Şah I Abbas

a. Azərbaycan bəylərbəyliyinin yaradılması
b. Niyazabad döyüşü
c. Xorasanın geri qaytarılması
d. Mollahəsənli döyüşündə Krım xanının ordusunun məğlub edilməsi
e. Osmanlı hökmdarı II Bəyazidin Səfəvi dövləti ilə dostluq əlaqələri saxlaması

***Mövzu:*** Azərbaycan Səfəvilər dövləti XVI əsrdə
***Sinif:*** 8, 10-Azərbaycan tarixi
***Alt-standart:*** 4.1.1
***İzah:*** Şah Məhəmməd Xudabəndənin hakimiyyəti dövründə Çıldır döyüşü baş vermişdir və XVI əsrin 70-ci illərinin sonunda Səfəvi dövləti Krım xanının yürüşünə məruz qalmışdır. Şah I Abbas paytaxtı Qəzvindən İsfahana köçürmüş və ölkənin aşağı təbəqəsindən ibarət tüfəngçilər qoşun növünü yaratmışdır.
Digər cavab hökmdarlardan heç birinin hakimiyyəti dövrünə uyğun deyildir.
***Doğru cavab:*** 1 – b, d; 2 – a, c

***Sizə təqdim olunmuş mənbə əsasında***
***58 – 60 saylı tapşırıqları tarixi bilikləriniz əsasında***
***Cavab vərəqində cavablandırın.***

1970-ci illərdə Ərəb ölkələri yenidən müttəfiq kimi ümumi düşmənə qarşı birləşib müharibəyə başladılar. Neftin qiymətinin dörd dəfə artması və dünyada iqtisadi böhranın yaratdığı çətinliklər İsrail və müttəfiqlərini danışıqlara getməyə məcbur etdi. Onlar eyni zamanda qarşı tərəfin qüvvələrini parçalamaq istəyirdilər. İsrail və müttəfiqləri bu məqsədi Kemp-Deviddə imzalanmış sazişlə həyata keçirməyə nail oldular.

**A variantı 58 saylı test tapşırığı**
**B variantı 58 saylı test tapşırığı**
**C variantı 58 saylı test tapşırığı**
**D variantı 58 saylı test tapşırığı**

Mənbədə bəhs olunan müharibəni başlamaqda Ərəb dövlətlərinin məqsədi:
***Mövzu:*** Dünya ölkələri II Dünya müharibəsindən sonra.
***Sinif:*** 9, 11 – Ümumi tarix
***Alt-standart:*** 1.1.1
***İzah:*** Mənbədə bəhs olunan müharibə 1973-cü ildə baş vermiş Ərəb-İsrail müharibəsidir. Ərəb dövlətlərinin bu müharibəni başlamaqda məqsədi itirilmiş əraziləri geri qaytarmaq idi.

**A variantı 59 saylı test tapşırığı**
**B variantı 59 saylı test tapşırığı**
**C variantı 59 saylı test tapşırığı**
**D variantı 59 saylı test tapşırığı**

Bəhs olunan müharibənin başlanması ilə bu münaqişənin beynəlxalq miqyas aldığını göstərən mənbədə ***verilməyən*** siyasi və iqtisadi (hər birinə aid bir) amili yazın:
***Mövzu:*** Dünya ölkələri II Dünya müharibəsindən sonra.
***Sinif:*** 9, 11 – Ümumi tarix
***Alt-standart:*** 2.1.1
***İzah:*** Bəhs olunan Ərəb-İsrail müharibəsinin başlanması ilə bu münaqişənin beynəlxalq miqyas aldığını göstərən mənbədə verilməyən iqtisadi amil neft şokunun baş verməsi və neftdən beynəlxalq münasibətlərdə təsir vasitəsi kimi istifadə edilməsi, siyasi amil isə ABŞ-nin İsraili, SSRİ-nin ərəb ölkələrini dəstəkləməsi idi.

**A variantı 60 saylı test tapşırığı**
**B variantı 60 saylı test tapşırığı**
**C variantı 60 saylı test tapşırığı**
**D variantı 60 saylı test tapşırığı**

Haqqında bəhs edilən sazişin Misir dövləti üçün iki nəticəsini yazın.

***Mövzu:*** Dünya ölkələri II Dünya müharibəsindən sonra
***Sinif:*** 9, 11 – Ümumi tarix
***Alt-standart:*** 3.1.1
***İzah:*** Haqqında bəhs edilən saziş Kemp Deviddə imzalanmışdır. Misir dövləti üçün nəticəsi:
- Ərəb ölkələri Misirlə siyasi-iqtisadi əlaqələri kəsdi
- Sinay yarımadası Misirə qaytarıldı
- Misir İsraili müstəqil dövlət kimi tanıdı.

# Ədəbiyyat

**A variantı 61 saylı test tapşırığı**
**B variantı 68 saylı test tapşırığı**
**C variantı 63 saylı test tapşırığı**
**D variantı 77 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.
1. Qış dolaşır şəhərdə, səs-səmirsiz yağır qar,
Anamın saçlarıtək ağarmışdır yağışlar.
(S. Rüstəm)
2. Salon səssiz bir hal aldı, hərəkətdən əsər yox.
(S. Vurğun)

a. metafor
b. simvol
c. metonimiya
d. təşbeh
e. epitet

A) 1 – b, d; 2 – c, e B) 1 – d; 2 – a, b
C) 1 – b; 2 – d, e D) 1 – a, d; 2 – c
E) 1 – a, e; 2 – b, c

***Mövzu:***Bədii təsvir və ifadə vasitələri
***Sinif:*** *5-6*
***Alt-standart:*** 1. 1. 5
***İzah:*** Test tapşırığında verilmiş nümunələrə uyğun olaraq, bədii təsvir və ifadə vasitələrini müəyyən etmək tələb olunur. *Qış dolaşır şəhərdə – metafor; Anamın saçlarıtək ağarmışdır yağışlar – təşbeh; Salon səssiz bir hal aldı – metonimiya.*
***Doğru cavab:*** 1 – a, d; 2 – c

**A variantı 62 saylı test tapşırığı**
**B variantı 61 saylı test tapşırığı**
**C variantı 65 saylı test tapşırığı**
**D variantı 63 saylı test tapşırığı**

Cümləni tamamlaya ***bilməyən*** fikirləri müəyyən edin.
*Xaqani Şirvaninin "Gənclərə nəsihət" əsərində ...*
1. nadanların tərifinə aldanmamağa çağırış motivi də vardır.
2. doğma yurdun gözəlliklərinə məhəbbət hissi aşılanır.
3. fitnəkarlıqdan, hiylə və oğurluqdan uzaq olmağa çağırış əksini tapmışdır.
4. səbir etməklə xoşbəxtliyə çatmaq fikri aşılanır.
5. keçmiş hökmdarların eyibləri gənclərə ibrət olaraq göstərilir.

A) 2, 3, 4 B) 1, 3, 5 C) 1, 2, 5
D) 1, 3, 4 E) 2, 4, 5

***Mövzu:****Xaqani Şirvani.*
***Sinif:*** *8*
***Alt-standart:*** 1. 2. 4
***İzah:*** Tapşırığın şərtinə əsasən cümləni tamamlaya ***bilməyən*** fikirləri müəyyən etmək tələb olunur. ***Xaqani Şirvaninin "Gənclərə nəsihət" əsərində ...*** cümləsini *doğma yurdun gözəlliklərinə məhəbbət hissi aşılanır; səbir etməklə xoşbəxtliyə çatmaq fikri aşılanır* və *keçmiş hökmdarların eyibləri gənclərə ibrət olaraq göstərilir* fikirləri tamamlaya bilməz.
***Doğru cavab:*** 2, 4, 5

**A variantı 63 saylı test tapşırığı**
**B variantı 62 saylı test tapşırığı**
**C variantı 72 saylı test tapşırığı**
**D variantı 81 saylı test tapşırığı**

C. Məmmədquluzadənin "Anamın kitabı" əsərində Zəhrabəyim ananı narahat edən əsas məsələlərdir:
1. övladlarının təhsillərinin faydasızlığı
2. qızının ərə verilməsi
3. çobanların acınacaqlı taleyi
4. oğlanları arasında birliyin olmaması
5. Cəmiyyəti-xeyriyyənin iclaslarındakı qalmaqallı mübahisələr

A) 1, 4, 5 B) 2, 4 C) 1, 2, 3 D) 2, 5 E) 3, 4

***Mövzu:*** C. Məmmədquluzadə
***Sinif:*** 11
***Alt-standart:*** 1. 2. 4
***İzah:*** C. Məmmədquluzadənin "Anamın kitabı" əsərində Zəhrabəyim ananı narahat edən əsas məsələlərə *qızının ərə verilməsi* və *oğlanları arasında birliyin olmaması* aid edilə bilər.
***Doğru cavab:*** 2, 4

**A variantı 64 saylı test tapşırığı**
**B variantı 76 saylı test tapşırığı**
**C variantı 82 saylı test tapşırığı**
**D variantı 66 saylı test tapşırığı**

**64.** Uyğunluğu müəyyən edin.
1. "Heydərbabaya salam"(M. Şəhriyar)
2. "Qızılgül olmayaydı"(R. Rza)

a. Heca vəznində, dördlük bəndlər şəklindədir.
b. İstedadlı, yaradıcı insanların işgəncələrə məruz qalması da nəzərə çarpdırılır.

c. Əsər şairin xalqına və vətəninə sonsuz sevgisinin bədii ifadəsidir.
d. Təbiət lövhələrinə, xalq həyatının ayrı-ayrı məqamlarına xüsusi yer verilmişdir.
e. Müəllifin səmimi etirafları, özünüməzəmmətləri də əksini tapmışdır.

A) 1 – c; 2 – b, d B) 1 – a, d; 2 – b, e
C) 1 – c, d; 2 – b, e D) 1 – b; 2 – c, d
E) 1 – d; 2 – a, e

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 9, 10
***Alt-standart:*** 3. 1. 2
***İzah:*** “Heydərbabaya salam”(M. Şəhriyar) əsərinə aid olan fikirlər bunlardır: *Əsər şairin xalqına və vətəninə sonsuz sevgisinin bədii ifadəsidir; Təbiət lövhələrinə, xalq həyatının ayrı-ayrı məqamlarına xüsusi yer verilmişdir.*
“Qızılgül olmayaydı”(R. Rza) əsərinə aid olan fikirlər isə bunlardır: *İstedadlı, yaradıcı insanların işgəncələrə məruz qalması da nəzərə çarpdırılır; Müəllifin səmimi etirafları, özünüməzəmmətləri də əksini tapmışdır. Heca vəznində, dördlük bəndlər şəklindədir* fikri bu əsərlərdən heç birinə aid deyil, çünki “Heydərbabaya salam” poemasında bəndlər beşlikdir, “Qızılgül olmayaydı” poeması isə bəndlər şəklində yazılmayıb, sərbəst şeir formasında yazılıb.
***Doğru cavab:*** 1 – c, d; 2 – b, e

**A variantı 65 saylı test tapşırığı**
**B variantı 82 saylı test tapşırığı**
**C variantı 66 saylı test tapşırığı**
**D variantı 78 saylı test tapşırığı**

İ. Krılovun “Ağac” əsərinə əsasən klasteri tamamlaya ***bilməz***:

əsərin ideyasının müəyyənləşməsinə kömək edir.

İlan obrazı

A) Ağacın səhvinin nədən ibarət olduğunu izah edir.
B) Ağacın başına gələnləri bilir.
C) Ağacın təklikdə mövcud ola bilməyəcəyini söyləyir.
D) müəllif fikirlərinin ifadəçisidir.
E) Ağacın etdiklərinə haqq qazandırır.

***Mövzu:*** İ. Krılov
***Sinif:*** 6
***Alt-standart:*** 1. 2. 2
***İzah:*** İ. Krılovun “Ağac” əsəri ilə bağlı verilmiş klasteri tamamlaya bilməz: *Ağacın etdiklərinə haqq qazandırır.* Çünki İlan nəinki Ağaca haqq qazandırmır, əksinə, onu tənqid edir.
***Doğru cavab:*** *Ağacın etdiklərinə haqq qazandırır.*

**A variantı 66 saylı test tapşırığı**
**B variantı 81 saylı test tapşırığı**
**C variantı 70 saylı test tapşırığı**
**D variantı 67 saylı test tapşırığı**

M. İbrahimovun “Azad” əsəri ilə bağlı ***səhv*** fikirləri müəyyən edin.

1. Azad dərzi dükanına gələn Fərdaya oradaca maddi yardım edir.
2. Əsərdəki hadisələrin bir çoxu İkinci Dünya müharibəsi dövrünə təsadüf edir.
3. Firavan həyatın, maddi rifahın təmin olunması fikri əsərin əsas ideyasıdır.
4. Əsər Cənubi Azərbaycanda baş verən hadisələr əsasında qələmə alınmışdır.
5. Fərdanın ərbabın uşağını döyməsi onun ailəsinin Təbrizdən getməsinə səbəb olur.

A) 2, 4, 5 B) 1, 2, 3 C) 1, 4, 5
D) 1, 3, 5 E) 2, 3, 4

***Mövzu:*** M. İbrahimov
***Sinif:*** 7
***Alt-standart:*** 1. 1. 4
***İzah:*** Test tapşırığında M. İbrahimovun “Azad” əsəri ilə bağlı ***səhv*** fikirləri müəyyən etmək tələb olunur. *Azad dərzi dükanına gələn Fərdaya oradaca maddi yardım edir* fikri səhvdir, çünki Fərda evlərinə gələndə öyrənir ki, Azad ərbaba kirayə borcunu ödəmək üçün Fərdanın adından onun anasına pul verib. *Firavan həyatın, maddi rifahın təmin olunması fikri əsərin əsas ideyasıdır* fikri yanlışdır, çünki əsərin ideyası milli azadlıq uğrunda mübarizədir. *Fərdanın ərbabın uşağını döyməsi onun ailəsinin Təbrizdən getməsinə səbəb olur* fikri yanlışdır, çünki əsərdə Fərdanın ərbabın uşağını döyməsi faktı yoxdur.
***Doğru cavab:*** 1, 3, 5

**A variantı 67 saylı test tapşırığı**
**B variantı 78 saylı test tapşırığı**
**C variantı 81 saylı test tapşırığı**
**D variantı 76 saylı test tapşırığı**

M.Ə. Sabirin “Əkinçi” əsəri ilə bağlı cədvəldəki uyğun fikirləri müəyyən edin.

| *Əkinçi ilə bağlı doğru fikirlər* | *Mülkədar ilə bağlı* ***yanlış*** *fikirlər* |
|---|---|
| 1. Haqqını tələb etməkdə acizlik nümayiş etdirir.<br>2. Borcunu ödəyə bilməsə də, qürurlu davranışı ilə diqqəti cəlb edir.<br>3. Mülkədar tərəfindən alçaldılması mübarizə əzmini qıra bilmir. | 4. Əkinçinin hüquqsuz olduğunu dərk edir, onu ədaləti bərpa etmək üçün mübarizəyə təhrik edir.<br>5. Özünü öyərək üstün olduğunu vurğulayır.<br>6. Qəddarlığı ilə seçilsə də, bəzi məqamlarda güzəştə getməyə hazırdır. |

A) 1, 3, 5, 6 B) 2, 3, 6 C) 1, 2, 4, 5
D) 1, 4, 6 E) 2, 3, 4, 5

***Mövzu:*** M. Ə. Sabir
***Sinif:*** 8
***Alt-standart:*** 1. 2. 4
***İzah:*** Test tapşırığında M.Ə. Sabirin “Əkinçi” əsəri ilə bağlı cədvəldəki uyğun fikirləri müəyyən etmək tələb olunur. *Haqqını tələb etməkdə acizlik nümayiş etdirir* cədvəlin tələbinə uyğun olaraq, əkinçiyə aid doğru fikirdir, şeirdə mülkədarın dilindən verilmiş bir çox misralar bunu sübut edir: “Məzlumluq edib başlama fəryadə əkinçi!” “Bir üzrlə hər gündə gəlib durma qapımda, Yalvarma mənə, boynunu kəc burma qapımda, Gahi başına, gah döşünə vurma qapımda” və s. *Əkinçinin hüquqsuz olduğunu dərk edir, onu ədaləti bərpa etmək üçün mübarizəyə təhrik edir* fikri cədvəlin tələbinə uyğun olaraq, yanlışdır (yəni doğru cavabdır), çünki mülkədarın nitqindən məlum olur ki, əkinçinin hüquqsuz vəziyyəti mülkədarın vecinə deyil. *Qəddarlığı ilə seçilsə də, bəzi məqamlarda güzəştə getməyə hazırdır* fikri cədvəlin tələbinə uyğun olaraq, yanlışdır (yəni doğru cavabdır), çünki mülkədarın əkinçiyə güzəştə getmək fikri yoxdur.
***Doğru cavab:*** 1, 4, 6

**A variantı 68 saylı test tapşırığı**
**B variantı 66 saylı test tapşırığı**
**C variantı 79 saylı test tapşırığı**
**D variantı 72 saylı test tapşırığı**

İ. Şıxlının "Dəli Kür" əsəri ilə bağlı cədvəldəki uyğunluğu müəyyən edin.

| Səbəb | Nəticə |
|---|---|
| 1. Çar hökumətinə yerli məmurlar lazım idi. | Qori Müəllimlər Seminariyasında müsəlman şöbəsi açılır. |
| 2. Aleksey Osipoviç illər öncə Əhmədin təhsil aldığı məktəbdə işləmişdi. | Əhməd gecə gələn qonağın Aleksey Osipoviç olduğunu anlayır. |
| 3. Şamxal Güləsəri qaçırır. | Cahandar ağa Şamxalın bu hərəkətindən bərk əsəbiləşir. |
| 4. Aleksey Osipoviç müsəlman şöbəsinin açılması məsələsini irəli sürür. | Qori seminariyasının pedaqoji şurasında mübahisə yaranır. |
| 5. Cahandar ağanın ot tayasına od vurulur. | Nökərlər Allahyarı ələ keçirirlər. |

A) 2, 4 B) 1, 3 C) 1, 4 D) 3, 5 E) 2, 5

***Mövzu:*** İ. Şıxlı
***Sinif:*** 11
***Alt-standart:*** 1. 2. 4
***İzah:*** Test tapşırığında İ. Şıxlının "Dəli Kür" əsəri ilə bağlı cədvəldəki uyğunluğu müəyyən etmək tələb olunur. *Çar hökumətinə yerli məmurlar lazım idi* – səbəb, *Qori Müəllimlər Seminariyasında müsəlman şöbəsi açılır* – nəticə; *Şamxal Güləsəri qaçırır* – səbəb, *Cahandar ağa Şamxalın bu hərəkətindən bərk əsəbiləşir* – nəticə. Cədvəldəki digər fikirlər arasında səbəb-nəticə əlaqəsi pozulmuşdur.
***Doğru cavab:*** 1, 3

**A variantı 69 saylı test tapşırığı**
**B variantı 69 saylı test tapşırığı**
**C variantı 76 saylı test tapşırığı**
**D variantı 79 saylı test tapşırığı**

İ. Əfəndiyevin "Xurşidbanu Natəvan" əsəri ilə bağlı Eyler-Venn diaqramındakı doğru fikirləri müəyyən edin.




1. "Məclisi-üns"də həqiqi azadlığın mahiyyətindən söhbət açır.
2. Atası xalça karxanasında fəhləlik edərək onu oxutmuşdur.
3. Şahzadəni öldürmək üçün Təhminə və kor çalğıçı ilə əlbir hərəkət edir.
4. Cənubi Azərbaycandan didərgin düşür.
5. Natəvanın açdırdığı məktəbdə müəllimlik edir.
6. Atası ərbabı öldürdükdən sonra Şimali Azərbaycana pənah gətirir.

A) 1, 3, 4, 5 B) 2, 4, 5 C) 1, 2, 4, 6
D) 2, 3, 5 E) 1, 3, 6

***Mövzu:*** İ. Əfəndiyev
***Sinif:*** 11
***Alt-standart:*** 1. 2. 2
***İzah:*** Test tapşırığında İ. Əfəndiyevin "Xurşidbanu Natəvan" əsəri ilə bağlı Eyler-Venn diaqramındakı doğru fikirləri müəyyən etmək tələb olunur. Diaqrama görə, Seyid Hüseynə aid doğru fikirlər bunlardır: *"Məclisi-üns"də həqiqi azadlığın mahiyyətindən söhbət açır; Atası xalça karxanasında fəhləlik edərək onu oxutmuşdur.* Muradalıya aid doğru fikirdir: *Atası ərbabı öldürdükdən sonra Şimali Azərbaycana pənah gətirir*. Hər iki obraza aid doğru fikirdir: *Cənubi Azərbaycandan didərgin düşür.* Digər fikirlər: *Şahzadəni öldürmək üçün Təhminə və kor çalğıçı ilə əlbir hərəkət edir* və *Natəvanın açdırdığı məktəbdə müəllimlik edir* fikirləri yanlışdır, çünki diaqramın tələbinə uyğun yerləşməyib.
***Doğru cavab:*** 1, 2, 4, 6

**A variantı 70 saylı test tapşırığı**
**B variantı 74 saylı test tapşırığı**
**C variantı 77 saylı test tapşırığı**
**D variantı 79 saylı test tapşırığı**

R. Rzanın "Çinar ömrü" əsərinə aid ***yanlış*** fikirləri müəyyən edin.
Çinarın ölümü:
1. insanların qəlbində təəssüf və yanğı hissi oyadır.
2. insanları ekoloji problemlərin həllinə səsləyir.
3. şərəfli bir ömrün sonu kimi dəyərləndirilir.
4. insan həyatının mənası haqqında şairin düşüncələrinə meydan açır.
5. onun əzəmətinə paxıllıq edənləri sevindirir.

A) 1, 3, 5 B) 3, 4 C) 2, 4 D) 1, 2, 3 E) 2, 5

***Mövzu:*** R. Rza
***Sinif:*** 9
***Alt-standart:*** 3. 1. 2.
***İzah:*** Test tapşırığında R. Rzanın "Çinar ömrü" əsərinə aid ***yanlış*** fikirləri müəyyən etmək tələb olunur. *Çinarın ölümü insanları ekoloji problemlərin həllinə səsləyir* fikri yanlışdır, çünki çinarın məhv olması şeirdə ekoloji problem kimi təqdim edilməyib. Çinarın ölümü *onun əzəmətinə paxıllıq edənləri sevindirir* fikri yanlışdır, çünki, əksinə, insanlar onun ölümünə görə kədər və təəssüf hissi keçirirlər.
***Doğru cavab:*** 2, 5

**A variantı 71 saylı test tapşırığı**
**B variantı 71 saylı test tapşırığı**
**C variantı 64 saylı test tapşırığı**
**D variantı 65 saylı test tapşırığı**

Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.

İ. Nəsimi. "Sığmazam" M. Füzuli. "Məni candan usandırdı..."




a. Maddi və mənəvi aləmin insanda birləşdiyi fikri vurğulanır.
b. Rədif işlənməmişdir.
c. Lirik qəhrəmanın dilindən söylənilir.
d. Süjetli lirika nümunəsidir.
e. Əruz vəznində yazılmışdır.

A) 1 – b, c; 2 – e; 3 – d B) 1 – a; 2 – b; 3 – c, e
C) 1 – c; 2 – b, d; 3 – e D) 1 – d, e; 2 – a; 3 – c
E) 1 – b; 2 – a; 3 – c; e

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 10
***Alt-standart:*** 1. 2. 1
***İzah:*** Test tapşırığında Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən etmək tələb olunur. Diaqrama görə, İ. Nəsiminin "Sığmazam" qəzəlinə aiddir: *Maddi və mənəvi aləmin insanda birləşdiyi fikri vurğulanır.* M.Füzulinin "Məni candan usandırdı..." qəzəlinə aiddir: *Rədif işlənməmişdir.* Hər iki əsər üçün ortaq fikirlərdir: *Lirik qəhrəmanın dilindən söylənilir* və *Əruz vəznində yazılmışdır. Süjetli lirika nümunəsidir* fikri heç bir əsərə uyğun deyil, çünki diaqramın tələbinə uyğun yerləşməyib.
***Doğru cavab:*** 1 – a; 2 – b; 3 – c, e

**A variantı 72 saylı test tapşırığı**
**B variantı 67 saylı test tapşırığı**
**C variantı 67 saylı test tapşırığı**
**D variantı 74 saylı test tapşırığı**

Verilən parça ilə bağlı düzgün fikirləri müəyyən edin.

*Şallaqla güldürüldü*
*Hıçqırıqlı bir diyar.*
*Yuyuldu divarlara*
*Sıçramış qan ləkəsi.*
*Vay səsi susduruldu,*
*Əmr edildi toy səsi.*

1. Parçanı əsərin proloqu saymaq olar.
2. "Diyar" sözü metonimiyadır.
3. Ə. Cavadın "Səsli qız" poemasındandır.
4. Bədii təzaddan istifadə olunmuşdur.
5. Hökmdarın öz xalqına divan tutmasından bəhs edilir.

A) 3, 5  B) 2, 3, 4  C) 1, 4
D) 1, 2, 4  E) 2, 3, 5

***Mövzu:*** Ə. Cavad
***Sinif:*** 11
***Alt-standart:*** 1. 2. 4; 1. 1. 5
***İzah:*** Test tapşırığında təqdim olunmuş parçaya aid doğru fikirləri müəyyən etmək tələb olunur. *"Diyar" sözü metonimiyadır*, çünki diyar adı altında həmin diyarın insanları başa düşülür. *Ə. Cavadın "Səsli qız" poemasındandır* fikri də doğrudur. *Bədii təzaddan istifadə olunmuşdur* fikri doğrudur, çünki həm *Şallaqla güldürüldü Hıçqırıqlı bir diyar,* həm də *Vay səsi susduruldu, Əmr edildi toy səsi* misralarında bədii təzad işlənmişdir. *Parçanı əsərin proloqu saymaq olar* fikri yanlışdır, çünki kompozisiyaya yox, süjetin düyün mərhələsinə aiddir. *Hökmdarın öz xalqına divan tutmasından bəhs edilir* fikri yanlışdır, çünki işğalçı hökmdarın işğal etdiyi torpağın insanlarına divan tutmasından danışılır.
***Doğru cavab:*** 2, 3, 4

**A variantı 73 saylı test tapşırığı**
**B variantı 75 saylı test tapşırığı**
**C variantı 74 saylı test tapşırığı**
**D variantı 61 saylı test tapşırığı**

Cədvələ əsasən H. Cavidin "İblis" əsəri ilə bağlı doğru fikirləri müəyyən edin.

| *Ətrafındakıların Arifə münasibəti* | *Arifin digər obrazlara münasibəti* |
|---|---|
| 1. İbn Yəmin Arifin ona əngəl ola biləcəyindən narahat olur.<br>2. İxtiyar şeyx mənəvi sarsıntılardan qurtulması üçün onun qayğısına qalır.<br>3. Vasif onun müharibələr haqqında fikirlərinə istehzalı yanaşır. | 4. Nəyin bahasına olursa-olsun, Rənaya qovuşmaq istəyir.<br>5. İlk görüşdə İbn Yəminə zidd mövqedə olduğu hiss olunur.<br>6. Xavəri öldürdüyü üçün vicdan əzabı çəkir, İxtiyar şeyxdən bağışlanmasını rica edir. |

A) 1, 2, 4, 5  B) 1, 3, 5  C) 2, 3, 4, 5
D) 1, 4, 6  E) 2, 5, 6

***Mövzu:***H. Cavid
***Sinif:*** 11
***Alt-standart:*** 1. 2. 4
***İzah:*** Test tapşırığında cədvələ əsasən H. Cavidin "İblis" əsəri ilə bağlı doğru fikirləri müəyyən etmək tələb olunur. Cədvələ uyğun olaraq, *İbn Yəmin Arifin ona əngəl ola biləcəyindən narahat olur* fikri doğrudur, çünki İbn Yəmin Arifi görən kimi: "Bizə bir əngəl olmasın şu hərif", - deyərək narahatlığını ifadə edir. *İxtiyar şeyx mənəvi sarsıntılardan qurtulması üçün onun qayğısına qalır* fikri doğrudur. *Nəyin bahasına olursa-olsun, Rənaya qovuşmaq istəyir* fikri doğrudur, çünki Rənaya qovuşmaq üçün Xavəri və qardaşı Vasifi öldürür, nəfsinin quluna çevrilir. *İlk görüşdə İbn Yəminə zidd mövqedə olduğu hiss olunur* fikri doğrudur, çünki müharibə meydanından gəldiyini bildirən İbn Yəminə istehza ilə yanaşır.
***Doğru cavab:*** 1, 2, 4, 5

**A variantı 74 saylı test tapşırığı**
**B variantı 77 saylı test tapşırığı**
**C variantı 61 saylı test tapşırığı**
**D variantı 64 saylı test tapşırığı**

Q. Zakirin "Durnalar" şeiri ilə bağlı doğru fikirdir:

A) Zülm və zorakılığın əleyhinə çıxılır, satqınlıq, mənəm-mənəmlik kimi keyfiyyətlər pislənir.
B) Şair insan gözəlliyi ilə təbiət gözəlliyinin ahəngdarlığından söz açır.
C) Lirik qəhrəman durnalardan xəbər göndərməklə sevgilisinin qəlbini yumşaltmağa çalışır.
D) İctimai eyiblər, yaxın adamların xəyanəti üstüörtülü şəkildə əks etdirilir.
E) Vətən həsrəti, qəriblik kimi hisslərlə yanaşı, ictimai mətləblər də əksini tapır.

***Mövzu:*** Q. Zakir
***Sinif:*** 8
***Alt-standart:*** 1. 2. 4.
***İzah:*** Q. Zakirin "Durnalar" şeiri ilə bağlı doğru fikir *Vətən həsrəti, qəriblik kimi hisslərlə yanaşı, ictimai mətləblər də əksini tapır* fikridir**,** çünki şeir müəllifin Bakıdakı sürgün həyatı zamanı keçirdiyi qəriblik hisslərini, yaşadığı vətən həsrətini və bəzi üstüörtülü ictimai mətləbləri əks etdirir. Digər fikirlər əsərin məzmununa uyğun deyil, yanlışdır.
***Doğru cavab:*** Vətən həsrəti, qəriblik kimi hisslərlə yanaşı, ictimai mətləblər də əksini tapır.

**A variantı 75 saylı test tapşırığı**
**B variantı 80 saylı test tapşırığı**
**C variantı 73 saylı test tapşırığı**
**D variantı 70 saylı test tapşırığı**

Ə. Haqverdiyevin "Bomba" hekayəsinin baş qəhrəmanı Kərbəlayı Zalı səciyyələndirən xüsusiyyətləri müəyyən edin.

1. Dövlət qulluğunda qalmaq üçün əlindən gələni etməyə çalışır.
2. Usta Feyzulla ilə ədavəti var.
3. Xalqına fayda vermək üçün dövlət qulluğunda çalışır.
4. Sonda zavallıya çevrilərək qulluqdan xaric edilir.
5. Pristavın ondan narazı olduğunu biləndə təşvişə düşür.
6. Arvadının təklifinə qulaq asaraq dükan açır.

A) 2, 3, 4 B) 1, 4, 5 C) 1, 5, 6
D) 2, 5, 6 E) 3, 4, 6

***Mövzu:*** Ə. Haqverdiyev
***Sinif:*** 8
***Alt-standart:*** 1. 2. 2.
***İzah:*** Ə. Haqverdiyevin "Bomba" hekayəsinin baş qəhrəmanı Kərbəlayı Zalı səciyyələndirən xüsusiyyətləri müəyyən etmək tələb olunur. *Dövlət qulluğunda qalmaq üçün əlindən gələni etməyə çalışır* doğru fikirdir, çünki Usta Feyzulladan şübhələnərək polisləri onun evinə yığması bunun göstəricisidir. *Sonda zavallıya çevrilərək qulluqdan xaric edilir* fikri doğrudur, çünki Feyzullanın evində uğursuzluqla nəticələnən axtarışdan sonra işdən çıxarılır. *Pristavın ondan narazı olduğunu biləndə təşvişə düşür* doğru fikirdir, çünki pristavın yanından çıxdıqdan sonra evə bikef gedir, iştahsız yemək yeyir, yata bilmir, işə gedəndə də fikirli olur, ətrafında "xatalı şey" axtarmağa başlayır.
***Doğru cavab:*** 1, 4, 5

**A variantı 76 saylı test tapşırığı**
**B variantı 64 saylı test tapşırığı**
**C variantı 71 saylı test tapşırığı**
**D variantı 82 saylı test tapşırığı**

N. Gəncəvinin "İskəndərnamə" əsərində İskəndər obrazı ilə bağlı doğru fikirləri müəyyən edin.

1. Dara ilə müharibəyə başlamazdan əvvəl məclis quraraq aqillərlə, başçılarla məsləhətləşir.
2. Ərəstunun məsləhəti ilə Kəyanlardan qisas almaq fikrindən daşınır.
3. Daranın sərdarlarına inanmasa da, Daranı öldürmək üçün onlarla razılığa gəlir.
4. Güclü ordusu olduğu üçün Dara ilə döyüşdə itki vermir.
5. Daranın qoşununa qalib gəlmək üçün qəflətən basqın edib düşməni arxadan vurmağa qərar verir.

A) 2, 5 B) 3, 4 C) 1, 3 D) 4, 5 E) 1, 2

***Mövzu:*** N. Gəncəvi
***Sinif:*** 10
***Alt-standart:*** 1. 1. 4.
***İzah:*** Test tapşırığında N. Gəncəvinin "İskəndərnamə" əsərində İskəndər obrazı ilə bağlı doğru fikirləri müəyyən etmək tələb olunur. *Dara ilə müharibəyə başlamazdan əvvəl məclis quraraq aqillərlə, başçılarla məsləhətləşir* fikri doğrudur, çünki müharibəyə başlayıb-başlamamaq barədə onlardan məsləhət alır. *Daranın sərdarlarına inanmasa da, Daranı öldürmək üçün onlarla razılığa gəlir* fikri doğrudur, çünki Daranı öldürmək barədə onun yanına təkliflə gələn sərdarlarla onların Daranı öldürə biləcəklərinə inanmasa da, peyman bağlayır.
***Doğru cavab:*** 1, 3

**A variantı 77 saylı test tapşırığı**
**B variantı 79 saylı test tapşırığı**
**C variantı 62 saylı test tapşırığı**
**D variantı 80 saylı test tapşırığı**

Eyler-Venn diaqramına əsasən doğru fikirləri müəyyən edin.




A) 1, 5, 6 B) 1, 2, 4 C) 2, 3, 4
D) 1, 3, 5 E) 2, 3, 5

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 7, 11
***Alt-standart:*** 1. 2. 1.; 1. 2. 4.
***İzah:*** Test tapşırığında Eyler-Venn diaqramına əsasən doğru fikirləri müəyyən etmək tələb olunur. Diaqrama görə, *El malını dağıdanların, rəyasət düşkünlərinin əməlləri kəskin tənqid edilir* fikri Mir Cəlalın "Açıq kitab" əsərinə aiddir, çünki Gəldiyev kimi el malını dağıdanların, Verdiyev kimi rəyasət düşkünlərinin əməlləri kəskin tənqidə məruz qalır. *Əməyi istismar olunan obraz ədalətsizliyin faciəvi qurbanına çevrilir* fikri Mir Cəlalın "Bahar" əsərinə aiddir. *Epik növdədir* fikri hər iki əsərə aiddir. 4-cü fikir heç bir əsərə uyğun deyil, çünki 4-cü və 6-cı fikirlər isə diaqramın tələbinə uyğun yerləşməyib.
***Doğru cavab:*** 2, 3, 5

**A variantı 78 saylı test tapşırığı**
**B variantı 70 saylı test tapşırığı**
**C variantı 75 saylı test tapşırığı**
**D variantı 75 saylı test tapşırığı**

N.Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərindəki obrazlarla bağlı uyğunluğu müəyyən edin.

1. Mahmud bəy
2. Şahmar bəy

a. Nahaq qan tökməyə və zülm etməyə razı olmur.
b. Nadanlıq mühitinin ruhunda yetişmiş tipik obrazdır.
c. Atasının xudbin, mənəmlik hisslərinin qurbanına çevrilir.
d. Qardaşının arzularını həqiqətə çevirmək uğrunda çalışacağına söz verir.
e. Fəxrəddin ölüm ayağında olarkən Səadəti dayısıgildən çağırtdırır.

A) 1 – c, d; 2 – a, b B) 1 – a, e; 2 – b, c
C) 1 – b, c; 2 – d, e D) 1 – a, c; 2 – b, e
E) 1 – a, d; 2 – b, e

***Mövzu:*** N. Vəzirov
***Sinif:*** 10
***Alt-standart:*** 1. 2. 2.
***İzah:*** Test tapşırığında N.Vəzirovun "Müsibəti-Fəxrəddin"

əsərindəki obrazlarla bağlı uyğunluğu müəyyən etmək tələb olunur. *Nahaq qan tökməyə və zülm etməyə razı olmur* və *Atasının xudbin, mənəmlik hisslərinin qurbanına çevrilir fikirləri* Mahmud bəyə; *Nadanlıq mühitinin ruhunda yetişmiş tipik obrazdır* və *Fəxrəddin ölüm ayağında olarkən Səadəti dayısıgildən çağırtdırır fikirləri* isə Şahmar bəyə aiddir.
***Doğru cavab:*** 1 – a, c; 2 – b, e

**A variantı 79 saylı test tapşırığı**
**B variantı 63 saylı test tapşırığı**
**C variantı 69 saylı test tapşırığı**
**D variantı 69 saylı test tapşırığı**

C. Cabbarlının “Oqtay Eloğlu” əsərinə aid hadisələrin başvermə ardıcıllığını müəyyən edin.
1. Oqtay meyxanada pul verməkdən imtina edir.
2. Sevər dilənçi qadının yanında oturub öz acı həyatını danışır.
3. Oqtay dilənçilik edən bacısı Sevərlə qarşılaşır.
4. Xaspolat Səməd bəydən Oqtaya təsir etməsini xahiş edir.

A) 4, 2, 3, 1 B) 4, 2, 1, 3 C) 1, 2, 3, 4
D) 2, 1, 4, 3 E) 2, 4, 1, 3

***Mövzu:*** C. Cabbarlı. “Oqtay Eloğlu”
***Sinif:*** 11
***Alt-standart:*** 1. 1. 3.
***İzah:*** C. Cabbarlının “Oqtay Eloğlu” əsərinə aid hadisələrin başvermə ardıcıllığı belədir: *Sevər dilənçi qadının yanında oturub öz acı həyatını danışır, Xaspolat Səməd bəydən Oqtaya təsir etməsini xahiş edir, Oqtay meyxanada pul verməkdən imtina edir, Oqtay dilənçilik edən bacısı Sevərlə qarşılaşır.*
***Doğru cavab:*** 2, 4, 1, 3

**A variantı 80 saylı test tapşırığı**
**B variantı 72 saylı test tapşırığı**
**C variantı 78 saylı test tapşırığı**
**D variantı 68 saylı test tapşırığı**

*“Ağıllı uşaq”* nağılındakı hadisələr necə tamamlanır?
1. Qocalar zindandan azad olunur.
2. Xan Əhmədi özünə vəzir təyin edir.
3. Kənd camaatı talan olunmaqdan qurtulur.
4. Xanın adamları Əhmədi həbs edirlər.
5. Xan Əhmədlə razılaşdığı şərtini dəyişir.

A) 1, 3 B) 2, 4 C) 1, 4 D) 2, 5 E) 3, 5

***Mövzu:*** Şifahi xalq ədəbiyyatı
***Sinif:*** 6
***Alt-standart:*** 1. 2. 4.
***İzah:*** “Ağıllı uşaq” nağılındakı hadisələr bu fikirlərlə tamamlanır: *Qocalar zindandan azad olunur; Kənd camaatı talan olunmaqdan qurtulur.*
***Doğru cavab:*** 1, 3

**A variantı 81 saylı test tapşırığı**
**B variantı 73 saylı test tapşırığı**
**C variantı 80 saylı test tapşırığı**
**D variantı 71 saylı test tapşırığı**

Eyler-Venn diaqramına əsasən M.P. Vaqifin şeirlərinə aid düzgün fikirləri müəyyən edin.




A) 2, 3, 5 B) 1, 4, 6 C) 1, 5, 6
D) 1, 2, 6 E) 3, 4, 5

***Mövzu:*** M. P. Vaqif
***Sinif:*** 8, 10
***Alt-standart:*** 1. 2. 4.
***İzah:*** Eyler-Venn diaqramına əsasən M.P. Vaqifin şeirlərinə aid düzgün fikirləri müəyyən etmək tələb olunur. *Şirin danışığı, gözəlliyi ilə tanınan bir qız vəsf edilir* fikri “Pəri” qoşmasına; *Təbiət gözəlliyi ilə yaşayış məskənlərinin vəziyyəti qarşılaşdırılır, İctimai mətləblərə yer verilir* fikirləri “Hayıf ki, yoxdur” qoşmasına aiddir. Digər fikirlər isə yanlışdır, yaxud diaqramın tələbinə uyğun yerləşdirilməyib.
***Doğru cavab:*** 1, 5, 6

**A variantı 82 saylı test tapşırığı**
**B variantı 65 saylı test tapşırığı**
**C variantı 68 saylı test tapşırığı**
**D variantı 62 saylı test tapşırığı**

Cədvəldə rəqəmlərin yerinə uyğun olaraq yazıla bilər:

| *Əsər* | *Mövzu* | *Janr* |
|---|---|---|
| B. Vahabzadə. “Təzadlar” | Vyetnam müharibəsi fonunda azadlıq düşüncələri | 1 |
| İ. Hüseynov. “Zəhər” | 2 | hekayə |
| 3 | Musiqinin insan ruhuna təsiri | müxəmməs |

A) 1. Poema; 2. İnsan və onun təbiətə münasibəti; 3. S.Ə. Şirvani. “Guş qıl...”
B) 1. Dram; 2. Fərd və cəmiyyət münasibətləri; 3. M. Şəhriyar. “Türkün dili”
C) 1. Dram; 2. Susuz səhralara yeni həyat verilməsi; 3. İ. Həsənoğlu. “Apardı könlümü...”
D) 1. Faciə; 2. Vətən torpağının düşməndən müdafiəsi; 3. İ. Nəsimi. “Neylərəm”
E) 1. Poema; 2. Əhalinin sağlamlığının qorunması; 3. M. Füzuli. “Söz”

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 8, 9, 11
***Alt-standart:*** 1. 1. 4.
***İzah:*** Tapşırığın tələbinə uyğun olaraq, B. Vahabzadənin “Təzadlar” əsərinin janrına uyğun olaraq, 1 rəqəmi olan xanaya *Poema*, İ. Hüseynovun “Zəhər” hekayəsinin mövzusu kimi 2 rəqəmi olan xanaya *İnsan və onun təbiətə münasibəti*, mövzu və janrı nəzərə alınmaqla 3 rəqəmi olan xanaya *S. Ə. Şirvani. “Guş qıl...”* əsəri uyğundur.
***Doğru cavab:*** 1. Poema; 2. İnsan və onun təbiətə münasibəti; 3. S.Ə. Şirvani. “Guş qıl...”

**A variantı 83 saylı test tapşırığı**
**B variantı 86 saylı test tapşırığı**
**C variantı 83 saylı test tapşırığı**
**D variantı 84 saylı test tapşırığı**

Mir Cəlalın "Vətən yaraları" əsərində hadisəni nəql edən əsgərlə bağlı doğru fikirləri müəyyən edin.
1. Xəyallarında gələcək ilə bağlı özünə iki ömür yolu arzu edir.
2. Arxada qalan xatirələri qorumağı da bir vəzifə hesab edir.
3. Komandirlə birlikdə ən təhlükəli tapşırıqlara gedir.
4. Dostlar bir yerə yığılmadan anaların sovqatının açılmamasında israrlıdır.
5. Yaralandığı üçün arxa cəbhəyə göndərilir.

***Mövzu:*** Mir Cəlal
***Sinif:*** 11
***Alt-standart:*** 1. 2. 2.
***İzah:*** Mir Cəlalın "Vətən yaraları" əsərində hadisəni nəql edən əsgərlə bağlı doğru fikirlər bunlardır: *Xəyallarında gələcək ilə bağlı özünə iki ömür yolu arzu edir; Arxada qalan xatirələri qorumağı da bir vəzifə hesab edir; Yaralandığı üçün arxa cəbhəyə göndərilir.* Digər fikirlər: *Komandirlə birlikdə ən təhlükəli tapşırıqlara gedir, Dostlar bir yerə yığılmadan anaların sovqatının açılmamasında israrlıdır yanlışdır*, çünki Nəsrəddin obrazına aiddir.
***Doğru cavab:*** 1, 2, 5

**A variantı 84 saylı test tapşırığı**
**B variantı 85 saylı test tapşırığı**
**C variantı 85 saylı test tapşırığı**
**D variantı 85 saylı test tapşırığı**

M. Füzulinin "Leyli və Məcnun" əsəri ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Cəmiyyətə müxalif mövqedə dayanan Məcnun azadlığı təbiətin qoynunda tapır.
2. Leylinin anası öz nəsihətində söz-söhbətlərə son qoymaq yolunu da göstərir.
3. Zeyd həsrətə dözməyən İbn Səlamın ölümünü Leylinin ahı ilə əlaqələndirir.
4. Nofəllə döyüşdə məğlub olan Leylinin atası əlacsız qalıb qızını Məcnuna verməyə razı olur.
5. İbn Səlamın ölüm xəbərini aldıqda Məcnun ah-nalə edir.

***Mövzu:*** M. Füzuli
***Sinif:*** 10
***Alt-standart:*** 1. 1. 4.
***İzah:*** Test tapşırığında Füzulinin "Leyli və Məcnun" əsəri ilə bağlı doğru fikirləri müəyyən etmək tələb olunur. *Cəmiyyətə müxalif mövqedə dayanan Məcnun azadlığı təbiətin qoynunda tapır* fikri doğrudur, çünki düşüncə tərzi cəmiyyətin əxlaq və davranış normalarına zidd olan Məcnun cəmiyyətdə azadlıq istəyinin başa düşülmədiyini gördükdə təbiətə üz tutur. *Leylinin anası öz nəsihətində söz-söhbətlərə son qoymaq yolunu da göstərir* fikri doğrudur, çünki qızı haqqında söz-söhbətdən narahat olan ana söz-söhbəti kəsməyin yolunu Leylinin məktəbə getməməsində görür və bunu ona bildirir. *İbn Səlamın ölüm xəbərini aldıqda Məcnun ah-nalə edir* fikri də doğrudur. Digər fikirlər: *Zeyd həsrətə dözməyən İbn Səlamın ölümünü Leylinin ahı ilə əlaqələndirir* yanlışdır, çünki İbn Səlamın ölümü müəllif tərəfindən Məcnunun ahı ilə əlaqələndirilir. *Nofəllə döyüşdə məğlub olan Leylinin atası əlacsız qalıb qızını Məcnuna verməyə razı olur* fikri yanlışdır, çünki atası Leylinin başqasına verildiyini bildirərək onu Məcnuna verməkdən imtina edir.
***Doğru cavab:***1, 2, 5

**A variantı 85 saylı test tapşırığı**
**B variantı 83 saylı test tapşırığı**
**C variantı 84 saylı test tapşırığı**
**D variantı 83 saylı test tapşırığı**

M.F. Axundzadənin "Aldanmış kəvakib" əsərindəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsi ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Mirzə Sədrəddin Şah Abbasa sədaqətini nümayiş etdirmək istəyir. – Ulduzlardan gələcək bəla ilə bağlı şaha xəbər verir.
2. Mirzə Möhsün vəzifə sahiblərinin tutduqları vəzifəyə görə xəzinəyə pul bəxşişi vermələri ilə bağlı qərar qəbul edir. – Boşalmış xəzinə bir müddət sonra yenidən dolur.
3. İrana hücum edən Osmanlı Bəkir paşanın qoşunu sayca İran qoşunlarından dəfələrlə çox olur. – Sərdar Zaman xan yolların, körpülərin dağıdılmasına əmr verir.
4. Mollabaşı Axund Səmədin münəccimbaşı ilə ədavəti olur. – Şah Abbasın Mirzə Sədrəddini cəzalandırması üçün əlindən gələni edir.
5. Yoxsul Yusif Sərrac ailəsini dolandırmaqda çətinlik çəkir. – Ruhanilikdən əl çəkib sərraclıq sənətinə yiyələnir.
6. Sərdar Zaman xan münəccimbaşının bağışlanmasını şahdan xahiş edir. – Şah Abbas baş verəcək bəlanı uzaqlaşdırmağın yolunu tapması üçün Mirzə Sədrəddinə vaxt verir.

***Mövzu:*** M. F. Axundzadə
***Sinif:*** 10
***Alt-standart:*** 1. 1. 3.
***İzah:*** Test tapşırığında M.F. Axundzadənin "Aldanmış kəvakib" əsərindəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsi ilə bağlı doğru fikirləri müəyyən etmək tələb olunur. *İrana hücum edən Osmanlı Bəkir paşanın qoşunu sayca İran qoşunlarından dəfələrlə çox olur. – Sərdar Zaman xan yolların, körpülərin dağıdılmasına əmr verir* fikrində səbəb-nəticə əlaqəsi yanlışdır, çünki Osmanlı Bəkir paşanın qoşunu sayca İran qoşunlarından az deyildi, Sərdar Zaman xan üçün yolları, körpüləri qoşunu qırğına verməmək üçün dağıtdırdığını bildirir. *Yoxsul Yusif Sərrac ailəsini dolandırmaqda çətinlik çəkir. – Ruhanilikdən əl çəkib sərraclıq sənətinə yiyələnir* fikri yanlışdır, çünki Yüsif Sərracın ruhanilikdən əl çəkib sərraclıq sənətinə yiyələnməsinin səbəbi ruhani sinfinin saxtalığını görməsi və bu sinfə nifrət bəsləməsidir.
Tapşırıqdakı digər fikirlər arasında səbəb-nəticə əlaqəsi doğrudur və test tapşırığının doğru cavabıdır.
***Doğru cavab:*** 1, 2, 4, 6

**A variantı 86 saylı test tapşırığı**
**B variantı 84 saylı test tapşırığı**
**C variantı 86 saylı test tapşırığı**
**D variantı 86 saylı test tapşırığı**

S. Vurğunun "Vaqif" əsəri ilə bağlı cədvəldəki doğru fikirləri müəyyən edin.

| Əsərlə bağlı fikir | Fikri sübut edir |
|---|---|
| Cəmiyyətdə sosial təbəqələşmə hökm sürür. | 1. Əli bəyin toyunda İbrahim xanın sadə xalqın nümayəndəsi Eldara münasibəti<br>2. Vaqifin Qacara sərt cavab məktubu yazması<br>3. Eldarın gürcü əsirləri vətənlərinə yola salması |
| Sədaqətli insanlar mövcuddur. | 4. Eldarın Vaqifin məktubuna əməli cavabı<br>5. Xuramanın zindana gəlişi<br>6. Vidadinin Qacarın hüzuruna gəlməsi |

***Mövzu:*** S. Vurğun
***Sinif:*** 11
***Alt-standart:*** 3. 1. 2.
***İzah:*** Test tapşırığında S. Vurğunun "Vaqif" əsəri ilə bağlı cədvəldəki doğru fikirləri müəyyən etmək tələb olunur. ***Cəmiyyətdə sosial təbəqələşmə hökm sürür*** fikrini əsaslandırır: *Əli bəyin toyunda İbrahim xanın sadə xalqın nümayəndəsi Eldara münasibəti*. Çünki İbrahim xan Eldarı "çoban-çoluq" hesab edir, Vaqifi onu məclisə dəvət etdiyi üçün qınayır. Bu da cəmiyyətdə təbəqələşmənin mövcudluğunu, aşağı təbəqəyə həqarətli münasibətin olduğunu göstərir. ***Sədaqətli insanlar mövcuddur*** fikrini əsaslandırır: *Eldarın Vaqifin məktubuna əməli cavabı.* Öldürülmək üçün zindana salınan Vaqif Eldara məktub yazaraq ondan kömək istəyir, Eldar dəstəsi ilə hücuma keçərək Qacarın qoşununu məğlub edir və Vaqiflə oğlu qurtulur. Bu da Eldarın sədaqətini sübut edir. ***Sədaqətli insanlar mövcuddur*** fikrini sübut edir: *Vidadinin Qacarın hüzuruna gəlməsi*. Vidadi özü üçün də təhlükəli ola biləcəyini gözə alaraq Qacarın hüzuruna gedərək Vaqifin bağışlanması üçün ona ağız açır. Bu da Vidadinin sədaqətini sübut edir.
***Doğru cavab:*** 1, 4, 6

**A variantı 87 saylı test tapşırığı**
**B variantı 87 saylı test tapşırığı**
**C variantı 87 saylı test tapşırığı**
**D variantı 87 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.
1. "Durna teli"
2. "Koroğlu ilə Bolu bəy"
3. "Düratın itməyi"

a. Koroğlu sonda özünə yeni bir dost qazanır.
b. Koroğlu təsadüfən düşmən əlinə keçir, özünü Çənlibel qoruqçusu kimi təqdim edir.
c. Qara xanın yanına gedən Koroğlu onun lovğa, özündənmüştəbeh biri olduğunu görür.
d. Koroğlunun qoca biçinçiyə həssas münasibət bəsləməsinin şahidi olmaq mümkündür.
e. Koroğlu İsabalının öldürmək istədiyi Mehtər Murtuzu namərdliklərinə rəğmən, bağışlayır.

***Mövzu:*** "Koroğlu" dastanı
***Sinif:*** 6, 7, 8
***Alt-standart:*** 1. 2. 4.
***İzah:*** Test tapşırığında "Koroğlu" dastanının müxtəlif qolları ilə bağlı uyğunluğu müəyyən etmək tələb olunur. **"Durna teli"** qoluna aid olan fikirlər: *Koroğlu sonda özünə yeni bir dost qazanır; Koroğlunun qoca biçinçiyə həssas münasibət bəsləməsinin şahidi olmaq.* **"Koroğlu ilə Bolu bəy"** qoluna aid olan fikirlər: *Koroğlu təsadüfən düşmən əlinə keçir, özünü Çənlibel qoruqçusu kimi təqdim edir. Koroğlu İsabalının öldürmək istədiyi Mehtər Murtuzu namərdliklərinə rəğmən, bağışlayır.* **"Düratın itməyi"** qoluna aid olan fikir: *Qara xanın yanına gedən Koroğlu onun lovğa, özündənmüştəbeh biri olduğunu görür.*
***Doğru cavab:*** 1- a, d; 2 – b, e; 3 - c

***Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və 88 – 90 saylı tapşırıqları Cavab vərəqində yerinə yetirin.***

**Xallı maral**
*(Povestdən parça)*

Zəkəriyyə başını qaldırıb qoruğa baxa bilmirdi. Maralları dodaqları əsə-əsə sayıb Səfərəliyə təhvil vermişdi. Dünən qoruq idarəsinin müdiri Səfərəli gəlib qonaqlarının ova – maral vurmağa gələcəklərini demişdi. Zəkəriyyə kəskin etiraz etmiş, yazılı göstəriş istəmişdi. Bu gün isə özünün işdən azad olunması əmri gəlmişdi.

İndi onun burada işi yox idi. Son anda dözməyib döndü, qoruğa tərəf yeridi, heç olmasa, sevimli xallı maralı – Alagözü sığallamaq istəyirdi. Qıfıl asılmışdı qapıdan. Səfərəli hırıldaya-hırıldaya açarları əlində oynadıb ona göstərirdi. Zəkəriyyə xahiş etmək istədi, qəhərləndi, ancaq özünü sındırmadı.

Zəkəriyyə atını yedəkləyib dəmir tor boyu yeridi. Qoruqdakı marallar da torun o üzündən onunla bərabər gedirdilər. Zəkəriyyə dözmədi, atını çapdı. Dırnaq axını Zəkəriyyəni izlədi, tor qarşısını kəsdi.

Günəş qoca dağların arxasında gizlənirdi. Meşə qan kimi qızarmışdı. Ona elə gəldi ki, maralların biri də qanlı tor dairəsindən salamat çıxmayacaq. Atın başını yığıb geri çapdı. Barmaqlarını tora keçirib dartdı, marallara yol açdı.

Kəhər qabaqda, sürü də onun dalınca meşənin dərinliyinə gedirdi.

*(F. Kərimzadə)*

**A variantı 88 saylı test tapşırığı**
**B variantı 88 saylı test tapşırığı**
**C variantı 88 saylı test tapşırığı**
**D variantı 88 saylı test tapşırığı**

F. Kərimzadənin "Xallı maral" və İ. Hüseynovun "Zəhər" əsərlərindəki obrazların xarakterik xüsusiyyətini nöqtələrin yerinə yazın və obrazlara görə əsaslandırın.

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 1.2.2.; 3.1.2.
***Ehtimal edilən doğru cavab variantları:***

1\. ........., çünki → Zəkəriyyə ____________________
→ Meşəbəyi Mirqasım ____________

2\. ........., çünki → Səfərəli ____________________
→ Daşdəmir ____________________

1\. Qürurludur.
**Zəkəriyyə** maralları son dəfə sığallamaq üçün Səfərəlidən xahiş etmək istəyir, lakin özünü sındırmır.
**Meşəbəyi Mirqasım** süd verməsi üçün Daşdəmirə pul təklif etmək istəyir, lakin qüruruna sığışdırmır.
*1. Təbiətsevərdir.*
**Zəkəriyyə** maralların öldürülməsini qəbul etmir.
**Meşəbəyi Mirqasım** meşənin su altında qalacağından kədərlənir (mal-heyvanın qoruğun ağaclarını məhv etməsinə imkan vermir; atının zəhərlənməsindən sarsılır) və s.
*1. Heyvansevərdir.*
**Zəkəriyyə** maralların öldürülməsini qəbul etmir.
**Meşəbəyi Mirqasım** atının zəhərlənməsindən sarsılır, onu xilas etməyə çalışır.
*1. İşində məsuliyyətlidir (dürüstdür; vəzivə borcuna sadiqdir).*
**Zəkəriyyə** maralların ovlanmasına icazə vermir, yazılı göstəriş istəyir.
**Meşəbəyi Mirqasım** Daşdəmirin meşədə mal-heyvan otarmasına imkan vermir.
*2. Namərddir (fürsətcildir).*
**Səfərəli** marallarla vidalaşmaq istəyən Zəkəriyyəni əlinə fürsət keçən kimi ora buraxmır, üstəlik açarları göstərməklə onu ələ salır.
**Daşdəmir** Mirqasımın atına aparacağı südü vurub dağıdır, ona iynəli sözlər deyir, atın ölümünün qarşısını almaq üçün heç nə eləmir.
*2. Amansızdır.*
**Səfərəli** qoruqda olan maralların ovlanmasına şərait yaradır. (Zəkəriyyə üçün maralların nə dəyərli olduğunu bildiyi, onun qəhərləndiyini gördüyü halda, nəinki ona qarşı həssas davranmır, hətta onun hissləri ilə oynayır).
**Daşdəmir** Daşdəmirin atına acımır, bəlkə də, onun ölümünə səbəb olur. (Mirqasım üçün Göy ürgənin nə ifadə etdiyini bildiyi halda, nəinki ona qarşı həssas davranmır, hətta onun hissləri ilə oynayır)

**A variantı 89 saylı test tapşırığı**
**B variantı 89 saylı test tapşırığı**
**C variantı 89 saylı test tapşırığı**
**D variantı 89 saylı test tapşırığı**

Əsərlərin forma və janr xüsusiyyətləri əsasında Eyler-Venn diaqramını tamamlayın.
I. F. Kərimzadə. "Xallı maral"
II. C. Məmmədquluzadə. "Anamın kitabı"




***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 1.2.1.
***Ehtimal edilən doğru cavab variantları:***

***F. Kərimzadə. "Xallı maral":***
- Epik növdədir.
- Təhkiyə əsasında yaradılmışdır.
- Təsvirdən istifadə edilmişdir.

***Ortaq cəhətlər:***
- Süjetli əsərdir.
- Nəsrlə yazılmışdır.
- Süjet xəttinə malikdir.

***C. Məmmədquluzadə. "Anamın kitabı":***
- *Dramatik növdədir.*
- *Tragikomediyadır.*
- *Əyani göstərmə əsasında yaradılmışdır.*
- *Surətlərin hərəkət və danışığı vəhdətdədir.*
- *Remarka, dialoq və monoloqdan istifadə edilmişdir və s.*

## A variantı 90 saylı test tapşırığı
## B variantı 90 saylı test tapşırığı
## C variantı 90 saylı test tapşırığı
## D variantı 90 saylı test tapşırığı

"Xallı maral" əsərindən verilmiş parça əsasında cədvəli doldurun.

| ***Bədii təsvir və ifadə vasitələri*** | ***Nümunə*** |
|---|---|
| 1. | |
| 2. | |
| 3. | |

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 1.1.5.
***Ehtimal edilən doğru cavab variantları:***

| ***Bədii təsvir və ifadə vasitələri*** | ***Nümunə*** |
|---|---|
| metafor | Günəş dağların arxasında gizlənirdi. |
| epitet | • qanlı tor dairəsi<br>• kəskin etiraz<br>• qoca dağlar |
| təşbeh | meşə qan kimi qızarmışdı |
| metonimiya | Dırnaq axını Zəkəriyyəni izlədi. |
| inversiya | Qıfıl asılmışdı qapıdan. |

# Coğrafiya (TC altqrupu)

**A variantı 61 saylı test tapşırığı**
**B variantı 72 saylı test tapşırığı**
**C variantı 66 saylı test tapşırığı**
**D variantı 71 saylı test tapşırığı**

Sxemə əsasən təzyiq sahəsinə aid doğru fikirləri müəyyən edin.

I. Mərkəzində alçaq təzyiq sahəsi mövcuddur.
II. Cənub yarımkürəsi üçün xarakterikdir.
III. Mərkəzində yüksək təzyiq sahəsi mövcuddur.
IV. Aydın, buludsuz hava şəraiti formalaşdırır.
V. Tutqun, buludlu hava şəraiti formalaşdırır.




A) I, V B) III, IV C) II, III D) II, V E) I, IV

***Mövzu:*** Atmosfer yerin hava təbəqəsi
***Sinif:*** *8*
***Alt-standart:*** 2.1.3
***İzah:*** Sxemdə siklon təsvir edilmişdir.
Siklonun mərkəzində alçaq kənarlarında isə yüksək təzyiq hakimdir. Şimal yarımkürəsində siklonlar saat əqrəbinin hərəkətinin əksi, cənub yarımkürəsində isə saat əqrəbi istiqamətində hərəkət edir. Siklonların mərkəzində qalxan hava axınları hakim olur. Qalxan hava tutqun və buludlu hava şəraiti formalaşdırır.
***Doğru cavab:*** I, V

**A variantı 62 saylı test tapşırığı**
**B variantı 80 saylı test tapşırığı**
**C variantı 82 saylı test tapşırığı**
**D variantı 61 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.

*Xüsusiyyət*
1. Dəmyə əkinçiliyi üstünlük təşkil edir.
2. Suvarmadan əsasən yay mövsümündə istifadə olunur.
3. Təbii şəraiti əkinçilik üçün əlverişsizdir.

*Ərazi və ya region*
a. Mərkəzi düzənliklər
b. Cənubi Avropa
c. Çukot yarımadası
d. Şərqi Asiya
e. Alyaska yarımadası

A) 1 – d; 2 – b; 3 – a; e B) 1 – c; 2 – b, e; 3 – d
C) 1 – a, b; 2 – c; 3 – d D) 1 – b; 2 – c, d; 3 – e
E) 1 – a; 2 – b; 3 – c; e

***Mövzu:*** Dünyanın kənd təsərrüfatı
***Sinif:*** 9
***Alt-standart:*** 3.2.3
***İzah:*** Mərkəzi düzənliklərdə mülayim və yağıntılı hava şəraiti dəmyə əkinçiliyi üçün əlverişlidir. Cənubi Avropa regionunda yayın isti və quraq keçməsi suvarmadan əsasən yay mövsümündə istifadə edilməsinə ehtiyac yaradır. Çukot və Alyaska yarımadalarında aqroiqlim ehtiyatları zəif olduğu üçün təbii şəraitləri əkinçilik üçün əlverişsizdir.
***Doğru cavab:*** 1 – a; 2 – b; 3 – c; e

**A variantı 63 saylı test tapşırığı**
**B variantı 69 saylı test tapşırığı**
**C variantı 76 saylı test tapşırığı**
**D variantı 76 saylı test tapşırığı**

Xəritə-sxemdə işarələnmiş iqtisadi rayonların oxşar (I) və fərqli (II) xüsusiyyətlərini müəyyən edin.



A) I – Bütövlükdə tektonik qalxma zonasında yerləşir.
II – Dağ-meşə landşaftı bütöv qurşaq təşkil edir.
B) I – Ərazilərində Alt paleozoy yaşlı vulkanogen-çökmə süxurlar geniş yayılmışdır.
II – İsti quraq yay, soyuq qış səciyyəvidir.
C) I – Neft və təbii qaz əsas faydalı qazıntı ehtiyatlarıdır.
II – Bütün inzibati rayonların xarici ölkəyə çıxışı var.
D) I – Suvarma şəraitində əkinçilik inkişaf etmişdir.
II – Yay otlaqlarında heyvandarlığın inkişafı üçün imkanlar mövcuddur.
E) I – Ərazilərindən buzlaq və qar ərinti suları ilə qidalanan çay keçir.
II – Yağıntıları bərabər paylanan mülayim-isti iqlim yarımtipi müşahidə olunur.

***Mövzu:*** Azərbaycan Respublikasının iqtisadi-coğrafi rayonları
***Sinif:*** 11
***Alt-standart:*** 3.2.1
***İzah:*** Xəritə-sxemdə Şəki-Zaqatala, Quba-Xaçmaz və Naxçıvan iqtisadi rayonları işarələnmişdir. Hər üç iqtisadi rayonun ərazisində qar və buzlaqlar mövcud olduğu üçün ərazilərindən buzlaq və qar ərinti suları ilə qidalanan çay keçir. Şəki-Zaqatala, Quba-Xaçmaz iqtisadi rayonunda yağıntıları bərabər paylanan mülayim-isti iqlim yarımtipinə rast gəlinsə də Naxçıvan iqtisadi rayonunda rast gəlinmir.
***Doğru cavab:*** I – Ərazilərindən buzlaq və qar ərinti suları ilə qidalanan çay keçir.
II – Yağıntıların bərabər paylanan mülayim-isti iqlim yarımtipi müşahidə olunur.

## A variantı 64 saylı test tapşırığı
## B variantı 70 saylı test tapşırığı
## C variantı 80 saylı test tapşırığı
## D variantı 81 saylı test tapşırığı

Doğru sıraları müəyyən edin.

| *Sıra* | *Qoruq və ya Milli Park* | *Yerləşdiyi inzibati rayon* | *Yerləşdiyi fiziki-coğrafi rayon* | *Mühafizə edilən komponentlər* |
|---|---|---|---|---|
| 1 | Göygöl | Göygöl | Gəncə | Qarmaqvari şam |
| 2 | Türyançay | Ağdaş | Ceyrançöl-Acınohur | Ardıc və saqqız ağacı |
| 3 | Qızılağac | İmişli | Kür-Araz | Su quşları |
| 4 | Şirvan | Şamaxı | Küdrü-Şirvan | Ceyranlar |
| 5 | Qaragöl | Zəngilan | Vulkanik Yayla | Göl kompleksi |
| 6 | Ağgöl | Ağcabədi | Kür-Araz | Su quşları |

A) 1, 2, 5 B) 3, 4, 5 C) 1, 2, 3
D) 1, 2, 6 E) 3, 4, 6

***Mövzu:*** Azərbaycanın torpaq, bitki örtüyü və heyvanlar aləmi, landşaft örtüyü
***Sinif:*** 10
***Alt-standart:*** 2.1.7
***İzah:*** Göygöl milli parkı Göygöl inzibati rayonunda və Gəncə fiziki-coğrafi rayonunda yerləşir və qoruğun ərazisində Qarmaqvari şam qorunur. Türyançay qoruğu Ağdaş inzibati rayonu və Ceyrançöl-Acınohur fizki-coğrafi rayonu ərazisində yerləşir, ərazisində ardıc və saqqız ağacları qorunur.
Ağgöl milli parkı Ağcabədi inzibati, Kür-Araz fiziki-coğrafi rayonunda yerləşir və ərazisində su quşları qorunur.
***Doğru cavab:*** 1, 2, 6

## A variantı 65 saylı test tapşırığı
## B variantı 76 saylı test tapşırığı
## C variantı 78 saylı test tapşırığı
## D variantı 74 saylı test tapşırığı

*A-B* xətti üzrə relyef profilini müəyyən edin.




A)



B)



C)



D)



E)



***Mövzu:*** Yer səthinin relyefi və onun tədqiqi
***Sinif:*** 11
***Alt-standart:*** 2.1.1
***İzah:*** *A-B* xətti üzrə relyef profilini üzrə əvvəlcə kəsmə yüksəkliyini müəyyən etmək lazımdır. İstənilən iki horizontal arasındakı fərqi kəsmə yüksəkliyinin sayına bölmək lazımdır. Məs:

150-140=10
10:4=2,5

Kəsmə yüksəkliyi 2,5 metrdir. A nöqtəsi 160 və 162,5 metrlər arasında, B nöqtəsi isə 130-132,5 metrlər arasında yerləşir. Bu göstəriciləri nəzərə alaraq doğru cavabı müəyyən etmək olar.

***Doğru cavab:***




## A variantı 66 saylı test tapşırığı
## B variantı 81 saylı test tapşırığı
## C variantı 72 saylı test tapşırığı
## D variantı 66 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.

1. Qışı quraq keçən mülayim-isti iqlim
2. Bütün fəsillərdə bol yağıntılı soyuq iqlim
3. Yayı quraq keçən soyuq iqlim

a. Böyük Qafqazın cənub yamaclarının dağətəyi və alçaq dağlıq sahələri
b. Naxçıvan MR-də orta dağlıq sahələri
c. Böyük Qafqazın şimal-şərq yamaclarının dağətəyi və alçaq dağlıq sahələri
d. Kiçik Qafqazın dağətəyi və alçaq dağlıq hissələri
e. Böyük Qafqazın cənub yamaclarının orta və yüksək dağlıq sahələri

A) 1 – d; 2 – e; 3 – b B) 1 – a; 2 – b; 3 – d
C) 1 – b; 2 – a; 3 – e D) 1 – c; 2 – b; 3 – d
E) 1 – d; 2 – c; 3 – b

***Mövzu:*** Azərbaycan respublikasının iqlimi
***Sinif:*** 10
***Alt-standart:*** 2.1.3
***İzah:*** Qışı quraq keçən mülayim-isti iqlim əsasən, Kiçik Qafqazın dağətəyi və alçaq dağlıq hissələrində yayılmışdır. Bütün fəsillərdə bol yağıntılı soyuq iqlim Böyük Qafqazın cənub yamaclarının orta və yüksək dağlıq sahələrində yayılmışdır. Yayı quraq keçən soyuq iqlim Naxçıvan MR-də orta dağlıq sahələri üçün xarakterikdir.
***Doğru cavab:*** 1 – d; 2 – e; 3 – b

## A variantı 67 saylı test tapşırığı
## B variantı 77 saylı test tapşırığı
## C variantı 70 saylı test tapşırığı
## D variantı 73 saylı test tapşırığı

2005-ci ildə ölkədə ümumi əhalinin sayı 8 300 000 nəfər, kənd əhalisi isə 3 984 000 nəfər olmuşdur. Həmin ildə ölkədə urbanizasiya səviyyəsini hesablayın.

A) 52% B) 54% C) 48,5% D) 56% E) 45%

***Mövzu:*** Azərbaycan Respublikasının əhalisi.
***Sinif:*** 10
***Alt-standart:*** 3.1.2
***İzah:*** Ümumi əhalinin sayından kənd əhalisinin sayını çıxdıqda şəhər əhalisinin sayı tapılır. Şəhər əhalisinin ümumi əhalinin sayına olan nisbəti şəhərləşmə səviyyəsini yəni urbanizasiyanı göstərir.

8300 000-3984000= 4316000
8300 000----------100%
4316000-----------x%
x= 52%

***Doğru cavab:*** 52%

## A variantı 68 saylı test tapşırığı
## B variantı 64 saylı test tapşırığı
## C variantı 71 saylı test tapşırığı
## D variantı 72 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.
1. Orta Araz vilayəti
2. Kür çökəkliyi vilayəti
3. Lənkəran vilayəti

a. Çayəmələgəlmə imkanı məhdud olsa da, illik çay axımı böyükdür.
b. Nival landşaftlar yaranır.
c. Ərazisinin böyük hissəsində mülayim-isti iqlim tipi hakimdir.
d. Həm filiz, həm də qeyri-filiz ehtiyatlara malikdir.
e. Ərazisində həm meşə, həm də çöl landşaftının mühafizə edildiyi qoruqlar vardır.

A) 1 – b, d; 2 – a, e; 3 – c B) 1 – a, d; 2 – b, e; 3 – c
C) 1 – b, c; 2 – a, e; 3 – d D) 1 – a, b; 2 – d, e; 3 – c
E) 1 – b, d; 2 – a, c; 3 – e

***Mövzu:*** Azərbaycan Respublikasının fiziki-coğrafi rayonlaşdırılması
***Sinif:*** 10
***Alt-standart:*** 2.1.1
***İzah:*** Orta Araz vilayətinin mütləq hündürlüyünün çox olması nival landşaftların yaranmasına səbəb olmuşdur. Bu vilayətin geoloji quruluşunun mürəkkəbliyi həm filiz həm də qeyri filiz faydalı qazıntılarla zəngin olmasına səbəb olmuşdur. Lənkəran vilayətinin ərazisinin böyük hissəsində mülayim-isti iqlim tipi hakimdir. Kür çökəkliyi vilayətində çayəmələgəlmə imkanları məhdud olsa da, relyef qurluşuna əsasən ərazisindən çoxlu sayda çayın keçməsi burada illik çay axımının böyük olmasına səbəb olmuşdur. Bu vilayət ərazisində həm meşə, həm də çöl landşaftının mühafizə edildiyi qoruqlar vardır.
***Doğru cavab:*** 1 – b, d; 2 – a, e; 3 – c

## A variantı 69 saylı test tapşırığı
## B variantı 73 saylı test tapşırığı
## C variantı 67 saylı test tapşırığı
## D variantı 82 saylı test tapşırığı

Dünyanın iri daş kömür ixracatçıları:
1. CAR
2. Braziliya
3. Çili
4. Avstraliya
5. Rusiya
6. Misir

A) 3, 4, 6 B) 1, 4, 5 C) 1, 2, 4
D) 1, 3, 5 E) 2, 5, 6

***Mövzu:*** Təbii ehtiyatlar və onlardan istifadə
***Sinif:*** 10
***Alt-standart:*** 3.2.3
***İzah:*** Faydalı qazıntı ehtiyatlarının qeyri-bərabər paylanması idxal və ixrac zərurəti yaradır. Zəngin daş kömür ehtiyatlarına malik olan CAR, Avstraliya və Rusiya dünyanın iri daş kömür ixracatçılarıdır.
***Doğru cavab:*** 1, 4, 5

## A variantı 70 saylı test tapşırığı
## B variantı 66 saylı test tapşırığı
## C variantı 62 saylı test tapşırığı
## D variantı 77 saylı test tapşırığı

Daimi qar xətti sxemlərinə əsasən doğru fikri müəyyən edin.




A) K dağının şimal yamacları cənuba nisbətən aqroiqlim ehtiyatları ilə daha zəif təmin olunmuşdur.
B) K dağı şimal subtropik iqlim qurşağında yerləşir.

C) L dağının yerləşdiyi paralel daha kiçik uzunluğa malikdir.
D) L dağı cənub yarımkürəsində yerləşir.
E) K dağı cənub mülayim iqlim qurşağında yerləşir.

***Mövzu:*** İqlim və onun təsərrüfata təsiri
***Sinif:*** 10
***Alt-standart:*** 2.1.3
***İzah:*** K və L sxemlərində müxtəlif coğrafi enliklərdə yerləşən dağlarda mövcud olan daimi qar xəttinin sərhədləri göstərilib. Dağların təsvir olunduğu sxemə nəzər yetirsək görə bilərik ki, dağlarda qar xəttinin həm hündürlüyü, həm də şimal və cənub yamacları üzrə keçmə hündürlüyü müxtəlifdir. L dağında daimi qar xəttinin daha aşağıdan keçməsi onun qütbə yaxın enliklərdə yerləşdiyini göstərir. Yerin kürə formada olduğunu nəzərə alsaq L dağının yerləşdiyi paralelin daha kiçik uzunluğa malik olduğunu görə bilərik.
***Doğru cavab:*** L dağının yerləşdiyi paralel daha kiçik uzunluğa malikdir.

## A variantı 71 saylı test tapşırığı
## B variantı 62 saylı test tapşırığı
## C variantı 68 saylı test tapşırığı
## D variantı 68 saylı test tapşırığı

Xəritə-sxemdə ştrixlənmiş ölkə üçün doğru fikirləri müəyyən edin.



1. Qərb hissəsində əhalinin sıxlığı daha çoxdur.
2. Şəkər çuğunduru, pambıq və cutun əsas ixracatçısıdır.
3. Məhsuldar qırmızı-qara torpaqlar yayılıb.
4. Subtropik iqlim qurşağının bərabər rütubətli iqlim tipi yayılmışdır.
5. Demoqrafik keçidin I mərhələsindədir.
6. Çaylarının qidalanmasında yağış suları üstünlük təşkil edir.

A) 2, 3, 5 B) 1, 3, 5 C) 3, 4, 6
D) 1, 2, 5 E) 2, 4, 6

***Mövzu:*** Dünya ölkələrinin xüsusiyyətləri.
***Alt-standart:*** 3.2.1
***Sinif:*** 9, 10, 11
***İzah:*** Xəritə-sxemdə ştrixlənmiş ölkə Argentinadır. Argentina ərazisində yerləşən çöl təbii zonasında məhsuldar qırmızı-qara torpaqlar yayılıb. Bu ölkədə subtropik iqlim qurşağının bərabər rütubətli iqlim tipi yayılıb və çaylarının qidalanmasında yağış suları üstünlük təşkil edir.
***Doğru cavab:*** 3, 4, 6

## A variantı 72 saylı test tapşırığı
## B variantı 74 saylı test tapşırığı
## C variantı 61 saylı test tapşırığı
## D variantı 67 saylı test tapşırığı

Dünya okeanına çay və ya kanal vasitəsilə çıxışı mövcud olan göllər:
A) Xəzər, Ontario, Oneqa, Ladoqa
B) Eri, Aral, Viktoriya, Tanqanika
C) Xəzər, Titikaka, Viktoriya, Eyr
D) Xəzər, Aral, Balxaş, Ladoqa
E) Eyr, Oneqa, Xəzər, Cenevrə

***Mövzu:*** Dünya nəqliyyatı və beynəlxalq iqtisadi əlaqələr.
***Alt-standart:*** 3.2.3
***Sinif:*** 11
***İzah:*** Göllərin dünya okeanı ilə əlaqələri çaylar və kanallar vasitəsilə mümkündür. Xəzərin Volqa çayı, Volqa-Don kanalı və Don çayı, Ontarinun Müqəddəs Lavrenti çayı, Oneqa gölünün Belomor kanalı, Ladoqa gölünün isə Neva çayı vasitəsilə dünya okeanına çıxışları var.
***Doğru cavab:*** Xəzər, Ontario, Oneqa, Ladoqa

## A variantı 73 saylı test tapşırığı
## B variantı 75 saylı test tapşırığı
## C variantı 69 saylı test tapşırığı
## D variantı 63 saylı test tapşırığı

Xəritə-sxemə əsasən A məntəqəsindən başlayan istiqamətlərə uyğun gələn coğrafi obyektlərin düzgün sırasını müəyyən edin.




a. 1 – Mil düzü, Hərəmi düzü
b. 3 – Vulkanik yayla, Gəyən düzü
c. 2 – Şirvan düzü, Yan silsilə
d. 1 – Gəncə-Qazax düzü, Oxçuçay
e. 2 – Qusar maili düzənliyi, Mazımçay
f. 3 – Kürəkçay, Şahdağ silsiləsi

A) b, d, f B) a, b, f C) a, c, f
D) c, d, e E) a, c, e

***Mövzu:*** Azərbaycan respublikasının relyefi
***Sinif:*** 10
***Alt-standart:*** 2.1.1
***İzah:*** A məntəqəsindən 1-ci istiqamətdə Mil və Hərəmi düzləri yerləşir. 2-ci istiqamətdə Şirvan düzü və Yan silsilə, 3-cü istiqamətdə isə Kürəkçay və Şahdağ silsiləsi yerləşir.
***Doğru cavab:*** a, c, f

**A variantı 74 saylı test tapşırığı**
**B variantı 79 saylı test tapşırığı**
**C variantı 73 saylı test tapşırığı**
**D variantı 75 saylı test tapşırığı**

Gəncə, Qarabağ, Şamaxı fiziki-coğrafi rayonlarında qışın sonu yazın əvvəli taxıl əkinlərinin yayılmasının səbəbi:
A) əkinə yararlı torpaqların çox az olması
B) yayın sərin və quru olması
C) qışın mülayim və quru olması
D) payızın soyuq və rütubətli olması
E) qışın soyuq və şaxtalı keçməsi

***Mövzu:*** Azərbaycan Respublikasının kənd təsərrüfatı
***Sinif:*** 10
***İzah:*** Ölkəmizin təbii şəraitindən asılı olaraq həm dağlıq, həm də düzənlik ərazilərdə taxıl əkinləri yayılmışdır. Gəncə, Qarabağ, Şamaxı fiziki-coğrafi rayonlarının orta dağlıq ərazilərində qışın əsasən soyuq və şaxtalı keçməsi taxıl əkinlərinin qışın sonu və yazın əvvəlində həyata keçirilməsinə səbəb olur.
***Doğru cavab:*** qışın soyuq və şaxtalı keçməsi

**A variantı 75 saylı test tapşırığı**
**B variantı 68 saylı test tapşırığı**
**C variantı 65 saylı test tapşırığı**
**D variantı 64 saylı test tapşırığı**

Cədvəldə verilmiş əlamətlərə görə ölkələrlə bağlı doğru fikirləri müəyyən edin.

| Əlamətlər | A ölkəsi | B ölkəsi |
|---|---|---|
| Adambaşına düşən ÜDM-nin dəyəri (ABŞ dolları) | 5 800 | 45 000 |
| Əmək ehtiyatlarında iqtisadi fəal əhalinin payı (%-lə) | 55 | 85 |
| Aşağı yaş qrupunun payı (%-lə) | 38 | 14 |
| İqtisadiyyatın I sektorunda çalışanların payı (%-lə) | 65 | 15 |

1. A ölkəsi demoqrafik keçidin II mərhələsindədir.
2. B ölkəsi əhalinin təbii artımının azaldılması üçün demoqrafik siyasət aparır.
3. B ölkəsində təbii artımın I tipi xarakterikdir.
4. A ölkəsində suburbanizasiya prosesi daha intensivdir.
5. B ölkəsi xidmət sahələri ilə daha yaxşı təmin olunub.
6. A ölkəsində kənd təsərrüfatı ancaq əmtəə xarakterlidir.

A) 1, 5, 6 B) 2, 4, 6 C) 1, 3, 5
D) 2, 3, 4 E) 2, 4, 5

***Mövzu:*** Dünya iqtisadiyyatının ümumi coğrafi səciyyəsi.
***Alt-standart:*** 3.1.1
***Sinif:*** 8,9,11
***İzah:*** Cədvəldəki göstəricilərə nəzər yetirsək aşağı yaş qrupunun yüksək göstəricisi A ölkəsinin demoqrafik keçidin II mərhələsində olduğunu göstərir. B ölkəsində aşağı yaş qrupu göstəricilərinin çox aşağı olması təbii artımın I tipi üçün səciyyəvidir. B ölkəsində adambaşına düşən gəlirin yüksək olması xidmət sahələri ilə daha yaxşı təmin olmasına imkan verir.
***Doğru cavab:*** 1, 3, 5

**A variantı 76 saylı test tapşırığı**
**B variantı 71 saylı test tapşırığı**
**C variantı 74 saylı test tapşırığı**
**D variantı 62 saylı test tapşırığı**

Ölkənin əhalisinin sayı 12 mln. nəfərdir. 1 ildən sonra əhalinin sayı 12,1 mln nəfərə çatmışdır. Artımın 40 min nəfəri mexaniki artım hesabına olmuşdur. Orta illik təbii artımı (hər 1000 nəfərə) hesablayın.
A) 9,6 nəfər B) 60 nəfər C) 8 nəfər
D) 11 nəfər E) 5 nəfər

***Mövzu:*** Dünya əhalisi
***Sinif:*** 9
***Alt-standart:*** 3.1.1
***İzah:*** 12,1mln - 12mln =100 000 ( 1 il ərzində əhalinin artımı)
100 000-40000=60000 ( 1 il ərzində əhalinin təbii artımı)
12000000-------------60000
1000--------------------x
x=5 (hər 1000 nəfərə düşən orta illik təbii artım)
***Doğru cavab:*** 5 nəfər

**A variantı 77 saylı test tapşırığı**
**B variantı 78 saylı test tapşırığı**
**C variantı 77 saylı test tapşırığı**
**D variantı 70 saylı test tapşırığı**

Xəritə-sxemdə rəqəmlərlə verilən ölkələrə aid olan xüsusiyyətləri müəyyən edin.




I. 1, 3, 5 – Təsərrüfatda hasilat sənayesinin payı üstündür.
II. 3, 4, 6 – “Yalançı urbanizasiya” səciyyəvidir.
III. 2, 4, 6 – Əhalisi Hind-Avropa dil ailəsinin eyni dil qrupuna mənsubdur.
IV. 2, 4, 5 – “Köçürmə kapitalist ölkələr” olmaqla yanaşı, əsas immiqrasiya mərkəzləridir.
V. 1, 5, 6 – İnzibati ərazi quruluşuna görə federativ ölkələrdir.
VI. 1, 3, 5 – Xarici iqtisadi əlaqələrində boru-kəməri nəqliyyatının payı üstündür.

A) I, IV, VI B) I, III, V C) III, IV, VI
D) II, III, V E) II, IV, VI

***Mövzu:*** Dünya ölkələrinin inkişaf xüsusiyyətləri (inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr)
***Sinif:*** 9,10
***Alt-standart:*** 3.2.1
***İzah:*** Türkiyə, Braziliya və Meksikanın iqtisadi inkişaf səviyyəsi onlarda “Yalançı urbanizasiya” prosesinin formalaşmasına səbəb olur. İspaniya, Braziliya və Meksikanın əhalisi Hind-Avropa dil ailəsinin roman dil qrupuna mənsubdur. Almaniya, Avstraliya və Meksika inzibati-ərazi quruluşuna görə federasiyadır.
***Doğru cavab:*** II, III, V

**A variantı 78 saylı test tapşırığı**
**B variantı 67 saylı test tapşırığı**
**C variantı 81 saylı test tapşırığı**
**D variantı 65 saylı test tapşırığı**

Horizontallara əsasən dağın dik yamacını və kəsmə yüksəkliyi müəyyən edin.




A) şimal, 20 m
B) cənub-şərq, 15 m
C) şimal-qərb, 20 m
D) cənub-qərb, 10 m
E) şimal-şərq, 10 m

***Mövzu:*** Relyefin təsviri
***Sinif:*** 7
***Alt-standart:*** 2.1.1
***İzah:*** Horizontallar nə qədər çox sıx olarsa dağın yamacı o qədər çox dik olar. Şimal və cənub oxuna nəzər yetirsək horizontal sıxlığının ən çox cənub-qərb istiqamətində olduğunu görə bilərik. Kəsmə yüksəkliyinin neçə metr olduğunu tapmaq üçün, hündürlükləri verilən horizontallar arasındakı fərqi kəsmə yüksəkliyinin sayına bölmək lazımdır.
370-340=30
30:3=10
***Doğru cavab:*** cənub-qərb 10 m

**A variantı 79 saylı test tapşırığı**
**B variantı 61 saylı test tapşırığı**
**C variantı 79 saylı test tapşırığı**
**D variantı 79 saylı test tapşırığı**

Doğru ***olmayan*** ifadələri müəyyən edin.
1. Ön Qafqaz tektonik çökməsi və Böyük Qafqaz tektonik qalxması eyni təbii vilayətin daxilindədir.
2. Kiçik Qafqaz tektonik qalxmasına aid olan bütün dağlıq ərazilərdə filiz faydalı qazıntılar geniş yayılıb.
3. Orta Araz əyilməsi zonasında qara metal xammalı hasil edilir.
4. Kür dağarası çökəkliyi zonasında arid-denudasion relyef formalarına rast gəlinir.
5. Böyük Qafqaz tektonik qalxma zonasında sürüşmə prosesləri aktiv şəkildə özünü göstərir.

A) 3, 4 B) 2, 3 C) 1, 5 D) 1, 2 E) 4, 5

***Mövzu:*** Relyefin təsviri
***Sinif:*** 8,9
***Alt-standart:*** 2.1.1
***İzah:*** Kiçik Qafqaz tektonik qalxmasına aid olan Talış dağlarında filiz mənşəli faydalı qazıntı ehtiyatlarına rast gəlinmir. Orta Araz əyilməsi zonasında çökmə süxurlar üstünlük təşkil etdiyi üçün qara metallurgiya xammalı olan dəmir, xrom və manqana rast gəlinmir.
***Doğru cavab:*** 2, 3

**A variantı 80 saylı test tapşırığı**
**B variantı 63 saylı test tapşırığı**
**C variantı 64 saylı test tapşırığı**
**D variantı 69 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.
1. Tatarıstan
2. Xakasiya
3. Kabarda-Balkar

a. Sənaye tullantıları Volqa çayını çirkləndirir.
b. Ərazisində yenidən fəallaşmış dağlar yerləşir.
c. Şimali Qafqaz regionunda yerləşir.
d. Dağ turizminin inkişafı üçün əlverişli təbii şəraitə malikdir.
e. Seysmik cəhətdən sabit ərazidə yerləşir.

A) 1 – a, d; 2 – b, e; 3 – c
B) 1 – a, b; 2 – c, e; 3 – d
C) 1 – e; 2 – a, b; 3 – c, d
D) 1 – c, e; 2 – a; 3 – b, d
E) 1 – a, e; 2 – b; 3 – c, d

***Mövzu:*** Türk dünyasının ümumi coğrafi səciyyəsi.
***Alt-standart:*** 3.2.1
***Sinif:*** 9
***İzah:*** Tatarıstan respublikasının ərazisi Volqa çay sistemində yerləşdiyi üçün onun ərazisindəki tullantılar Volqa çayını çirkləndirir. Tatarıstan ərazisi platformada yerləşdiyi üçün seysmik cəhətdən sabit ərazi hesab edilir. Xakasiya ərazisində yenidən fəallaşmış dağlar mövcuddur. Kabarda-Balkar ərazisi Şimali Qafqaz regionunda yerləşir, dağ turizminin inkişafı üçün əlverişli təbii şəraitə malikdir.
***Doğru cavab:*** 1 – a, e; 2 – b; 3 – c, d

**A variantı 81 saylı test tapşırığı**
**B variantı 65 saylı test tapşırığı**
**C variantı 63 saylı test tapşırığı**
**D variantı 80 saylı test tapşırığı**

Eyler-Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin.




a. Afrikada yayılmışdır.
b. Parana çayı hövzəsində yayılmışdır.
c. Tropik hava kütlələrinin təsirinə məruz qalır.
d. Avropa qitəsində yayılmışdır.
e. Cənub-Şərqi Asiya regionunda rast gəlinmir.
f. Kənd təsərrüfatının inkişafı üçün əlverişli aqroiqlim ehtiyatları vardır.

A) 1 – d, f; 2 – e; 3 – b, c; 4 – a
B) 1 – a; 2 – b; 3 – d,e; 4 – c, f
C) 1 – a; 2 – b, e; 3 – d; 4 – c, f
D) 1 – a, b; 2 – d; 3 – c; 4 – e, f
E) 1 – c; 2 – a, b; 3 – f; 4 – d, e

***Mövzu:*** Biosfer, coğrafi təbəqə, təbii zonalar onlardan istifadə
***Sinif:*** 9

***Alt-standart:*** 2.1.7
***İzah:*** Təbii şəraitdən asılı olaraq Yer kürəsinin müxtəlif enliklərində fərqli təbii zonalar yaranır. Afrikada savanna və seyrək meşələr və codyarpaqlı meşələr təbii zonası, Parana çayı hövzəsində savanna seyrək meşələr, meşə-çöl və çöllər, Avropada meşə-çöl və çöllər, codyarpaqlı meşələr təbii zonası yayılmışdır. Hər üç təbii zona tropik hava kütlələrinin təsirinə məruz qalır. Hər üç təbii zonada kənd təsərrüfatının inkişafı üçün əlverişli aqroiqlim ehtiyatları vardır.
***Doğru cavab:*** 1 – a; 2 – b; 3 – d, e; 4 – c, f

## A variantı 82 saylı test tapşırığı
## B variantı 82 saylı test tapşırığı
## C variantı 75 saylı test tapşırığı
## D variantı 78 saylı test tapşırığı

Çayın mənbəyində havanın temperaturu +1,8°C, mənsəbində +24,3°C-dir. Çayın uzunluğu 250 km olub dərəsində əsasən bərk süxurlar yayılmışdır. Bu çaya aid olan xüsusiyyətləri müəyyən edin.
1. dərəsində meandrlar geniş yayılıb
2. hidroenerji imkanlarına malikdir
3. nəqliyyat imkanları genişdir
4. mənbəyi Böyük Suayırıcı silsilədə yerləşir
5. dağıdıcı fəaliyyəti üstündür
6. V şəkilli çay dərəsi yaradır

A) 1, 3, 4 B) 2, 5, 6 C) 1, 2, 4
D) 2, 4, 6 E) 1, 3, 5

***Mövzu:*** Quru suları
***Alt-standart:*** 2.1.5
***İzah:*** Çayın mənbəyi ilə mənsəbi arasındakı temperatur fərqinin böyük olması onun böyük düşməyə malik olduğunu göstərir. Çayın uzunluğunu nəzərə alsaq, çayın orta meyilliyinin vahiddən dəfələrlə böyük (15 m/km) olduğunu, çayın orta və yüksək dağlıq ərazidən axdığını göstərir. Bundan əlavə çayın dərəsində bərk süxurların üstünlük təşkil etməsi V şəkilli çay dərəsinin formalaşmasına imkan yaradır.
